3 sentyabr 2021 №66 (1843)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Ermənistanı beynəlxalq məhkəmə qarşısına çıxara biləcək hesabat hazırlanıb

Xəbər verildiyi kimi, Britaniyadan olan beynəlxalq hüquqşünaslar İkinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın müxtəlif yaşayış məntəqələrində dinc əhaliyə qarşı törədilən hərbi cinayətlərlə bağlı müstəqil hesabat hazırlayıblar.

100 səhifəlik hesabat Azərbaycanın hücuma məruz qalmış yaşayış məntəqələrinə səfərlərin nəticələrinə və faktların araşdırılmasına əsaslanır, bununla bağlı beynəlxalq cinayət hüququ və beynəlxalq humanitar hüququn müvafiq aspektlərini araşdırır.

səh. 2

## Polad Bülbüloğlu Qırğızıstanın "Dostluq" ordeni ilə təltif olunub

Müstəqilliyinin 30 illiyini qeyd edən Qırğızıstanın Prezidenti Sadır Japarov əlamətdar yubiley ərəfəsində ölkə ilə mədəni əlaqələrin inkişafında, dostluq və əməkdaşlığın genişləndirilməsində xidmətləri olan şəxsləri təltif edib.

Təltif olunanlar arasında Azərbaycanın Rusiyadakı səfiri, MDB-nin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun sədri Polad Bülbüloğlu da var. Qırğızıstan Prezidenti təltifləri sahiblərinə təqdim edib.

səh. 3

## VI "Animafilm" festivalı başlanır

Sentyabrın 1-də Azərbaycan Kinematoqrafçılar İttifaqında Bakıda keçiriləcək VI "Animafilm" Beynəlxalq Animasiya Festivalı ilə əlaqədar mətbuat konfransı təşkil olunub.

Sentyabrın 3-dən 7-dək davam edəcək "Animafilm"də uşaqlar və böyüklər üçün çəkilmiş yerli və xarici animasiya filmləri nümayiş etdiriləcək. Festivalın müsabiqə proqramında 40 ölkədən 134 film iştirak edəcək. İştirakçılar 12 yerli və xarici kateqoriya üzrə mükafat uğrunda yarışacaqlar.

səh. 5

## Dünya Səhiyyə Təşkilatı və UNİCEF məktəbləri açmağa çağırır

Yeni tədris ili ilə əlaqədar uşaqların məktəbə qayıtmağa hazırlaşdığı bir dövrdə virusun ötürülməsini minimuma endirmək üçün tədbirlərin görülməsi hər zamankından daha böyük və həlledici əhəmiyyət kəsb edir.

Bu barədə Dünya Səhiyyə Təşkilatı (DST) və BMT Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliklərinin birgə məlumatında bildirilir.

səh. 2



## Moskvada "Mədəniyyət Ordusu" yaradıcılıq müsabiqəsi başa çatıb

### Təmsilçilərimiz duet rəqsdə 2-ci, vokalda və qrup rəqsində 3-cü oldular

"Beynəlxalq Ordu Oyunları – 2021" yarışları çərçivəsində Rusiya paytaxtında keçirilən "Mədəniyyət Ordusu" yaradıcılıq müsabiqəsi başa çatıb. Müsabiqədə ölkəmizi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblı təmsil edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, münsiflər heyətinin qərarına əsasən, ansamblın kollektivi 17 ölkə arasında vokal ustalığında solo ifada 3-cü, xoreoqrafik duet rəqsində 2-ci, qrup rəqsində isə 3-cü yerə layiq görülüb.

Bundan əlavə, Azərbaycan təmsilçiləri Alabino hərbi poliqonundakı "Dostluq Evi"ndə 21 ölkənin nümayəndələrinin iştirakı ilə keçirilən sərgidə 3-cü yeri tutublar.

## Üzeyir Hacıbəylinin möhtəşəm musiqisi Almaniyanın məşhur festivalında səslənib

### Bavariya orkestrini dirijor Əyyub Quliyev idarə edib

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, Əməkdar artist Əyyub Quliyev Almaniyada Qut İmmlinq Opera Sənəti Festivalında iştirak edib.

Almaniyanın füsunkar bölgələrindən olan Bavariyada – Qut İmmlinq şəhərində keçirilən ənənəvi festival hər il müxtəlif ölkələrdən dəvət olunmuş tanınmış opera müğənniləri, dirijor və rejissorları bir araya gətirir.

Bu il 25-ci dəfə təşkil olunan və 25 iyun – 29 avqust tarixlərində gerçəkləşən festival yeni layihələri ilə diqqəti cəlb edib. Festivalda C.Rossininin "Cenerentola" və C.Puççininin "Madam Batterflay" operalarının yeni quruluşu təqdim olunub, V.A.Motsartın musiqisinə həsr olunmuş "Mozarts Eskapaden" gecəsi, "Tanqo və trio", "Celsisimo" instrumental konsertləri, həmçinin festival çərçivəsində vokal ifaçılarının beynəlxalq müsabiqəsi keçirilib.

Musiqi bayramının son üç günü azərbaycanlı dirijor Əyyub Quliyevin idarəsi ilə Bavariya Festival Orkestrinin çıxışları ilə yadda qalıb. Beynəlxalq ifaçılardan ibarət xor və ABŞ, Litva, Danimarka, Rusiya, Çin və Qırğızıstandan dəvət olunmuş opera müğənnilərinin yer aldığı konsertlərdə C.Puççinin "Turandot", "Bohema", Q.Donisettinin "Sevgi şərbəti", C.Verdinin "Maqbet", "Traviata" və "Luiza Miller", A.Dvorjakın "Rusalka" və A.Tomanın "Hamlet" operalarından nümunələr səsləndirilib.

Konsertlərin əlamətdar hadisələrindən biri Bavariya Festival Orkestri tərəfindən dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra"nın səslənməsi olub. Almaniya, Avstriya, İtaliya, Rumıniya və Gürcüstandan tanınmış musiqiçilərdən ibarət orkestrin bu ifası alqışlarla qarşılanıb. Konsertdə azərbaycanlı dirijorla bərabər festivalın bədii rəhbəri Korneliya fon Kersenbrok və Gürcüstanın tanınmış xormeysterləri – Arçil Uşveridze və Mixail Edişeraşvilinin iştirakı isə gecənin dostluq simvoluna çevrilməsinə səbəb olub. Üç saata qədər davam edən konsertin sonunda dinləyicilərin marağı nəzərə alınaraq əlavə opera nümunələri də təqdim edilib.



## Türk Şurasının üzv və müşahidəçi ölkələrinin media nümayəndələri Ağdamda

### "Bizə ən çox qəbiristanlıqların, məscidlərin, tarixi abidələrin dağıdılması təsir etdi"

Sentyabrın 2-də Türk Şurasına üzv olan və müşahidəçi dövlətlərin media orqanlarının nümayəndələri Ağdam rayonuna səfər ediblər. Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstandan gəlmiş jurnalistlər əvvəlcə Qarabağın hökmdarı Pənahəli xanın iqamətgahı olmuş İmarət kompleksində olublar.

Qonaqlar sonra Ağdam Dövlət Dram Teatrı binasının qalıqları, şəhərin xarabalıqları ilə tanış olub, Cümə məscidinə baş çəkiblər.

Səfərin sonunda Prezidentin Ağdam rayonu üzrə xüsusi nümayəndəsi Emin Hüseynov media nümayəndələrinə Ağdam şəhərinin baş planı, aparılacaq quruculuq işləri haqqında məlumat verib.



Səfər iştirakçıları ölkələrinə qayıtdıqdan sonra gördükləri barədə məqalə və telefilmlər hazırlayaraq ictimaiyyətə çatdıracaqlarını deyiblər.

"Füzuli, Cəbrayıl və Şuşaya səfər etmişik. İndi Ağdama gəlmişik. Bizə ən çox qəbiristanlıqların, məscidlərin, tarixi abidələrin dağıdılması təsir etdi. Ermənilərin məscidlərdə heyvan saxlaması qeyri-insani hərəkətdir. Normal insanlar bunu etməzdi, amma ermənilər edib", – deyə Özbəkistan Dövlət Televiziyasının əməkdaşı Murad Abdullayev bildirib.

Qazaxıstanın "Egemen" qəzetinin əməkdaşı Meruyert Berkutbayeva deyib: "Gördüklərimiz bizdə çox dəhşətli təəssürat yaradıb. Çünki çoxlu dağıntılar gördük. Burada yaşamış insanlar evlərini, öz doğma diyarlarını tərk etmək məcburiyyətində qalıblar. Başa düşürük ki, müharibə insanların həyatında böyük dəyişikliklər yaradıb. Ümid edirik ki, bundan sonra Azərbaycan bütün dağılmış yerləri bərpa edəcək və inkişafa doğru gedəcək".

mövzunun davamı
səh. 4-də

## Şəhid mədəniyyət işçisinin adına abidə-bulaq kompleksinin açılışı keçirildi

Sentyabrın 1-də paytaxtın Binəqədi rayonunda Vətən müharibəsinin şəhidi Zamin Vahid oğlu Rəhimovun adına xatirə abidə-bulaq kompleksinin açılışı keçirildi. Zamin Rəhimov torpaqlarımızın azadlığı uğrunda həlak olmuş qəhrəman mədəniyyət işçilərindən biridir.



Mərasimdə Milli Məclisin deputatı Ceyhun Məmmədov, Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Arif Fərzəliyev, Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi Əlisultan Sadıxov, regional idarənin tabeliyində fəaliyyət göstərən Cəbrayıl rayonu Mahmudlu kənd Uşaq musiqi məktəbinin kollektivi, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri iştirak edirdilər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Arif Fərzəliyev mərasimi açaraq qeyd etdi ki, Zamin Rəhimov kimi igid oğullarımızın göstərdiyi qəhrəmanlıqlar gələcək nəsillər üçün nümunə olmalıdır: "Vətənin çağırışına səs verən igid oğullarımızdan biri də Zamin idi. O, Vətən uğrunda döyüşlərdə ali mərtəbəyə – şəhidlik ucalığına yüksəldi. Zaminin valideynləri başlarını hər zaman dik tutsunlar. Çünki şəhid valideyni olmaq böyük bir şərəfdir. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm".

davamı səh. 5-də

## Yaşarı yaşadan

Nədir? Doğurdan da, görəsən, nədir illərdir aramızda olmayan, cismani yoxluğu ilə evlərimizdəki "dördbucaq"da çoxdandı görünməyən adamı içimizdə, ürəyimizdə yaşadan?



Təbii ki, sizin də, mənim də xeyli arqumentimiz, peşəkar-həvəskar rəy-cavabımız olacaq. Amma hamı bu və başqa formada bir fikrə eyham vuracaq: Yaşar səhnədə də, ekranda da, həyatda da Yaşar idi də, sadəcə Yaşar...

Aktyor kimi janr və amplua çərçivəsini darmadağın etmişdi, "rejissor aktyoru", "obrazlar ustası", "müsbət qəhrəman", "mənfi rolları da sevdirmək bacarığına sahib" kimi heç bir aktyor analizinə sığmırdı. Heç bir təhlilində onu qütbləşdirə, ümumi ifadələrlə analiz edə bilmirsən. Bunu isə hər aktyor bacarmır.

səh. 7

## "Xosrov və Şirin" teleserialının çəkilişləri başa çatıb



səh. 3

## 78-ci Venesiya Beynəlxalq Film Festivalı

"Qızıl şir" uğrunda 21 film yarışır

səh. 2

## Türk dünyası sənətçilərinin Rumıniyada konserti



səh. 8

№66 (1843)
3 sentyabr 2021
www.medeniyyet.az

# Məqsədimiz ermənilərin törətdikləri cinayətləri dünya ictimaiyyətinə çatdırmaqdır

## Britaniyalı hüquqşünaslar qrupu Ermənistanı beynəlxalq məhkəmə qarşısına çıxara biləcək hesabat hazırlayıb

Xəbər verildiyi kimi, Britaniyadan olan beynəlxalq hüquqşünaslar İkinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın müxtəlif yaşayış məntəqələrində dinc əhaliyə qarşı törədilən hərbi cinayətlərlə bağlı müstəqil hesabat hazırlayıblar.

Hesabatda Azərbaycanın ən böyük ikinci şəhəri Gəncə də daxil olmaqla ölkəmizin müxtəlif şəhərlərində dinc əhaliyə qarşı edilən hücumlara beynəlxalq hüquq nöqteyi-nəzərindən qiymət verilir. 100 səhifəlik hesabat Azərbaycanın hücuma məruz qalmış yaşayış məntəqələrinə səfərlərin nəticələrinə və faktların araşdırılmasına əsaslanır, bununla bağlı beynəlxalq cinayət hüququ və beynəlxalq humanitar hüququn müvafiq aspektlərini araşdırır.

Hesabatın xüsusi veb-saytı da yaradılıb və orada yerləşdirilən videolarda beynəlxalq ekspertlər tərəfindən bu hesabatın hazırlanmasının məqsədləri haqqında hərtərəfli izahatlar verilir və xarici ekspertlər öz gözləri ilə gördüklərini təsvir edirlər.

Beynəlxalq cinayət hüququ üzrə vəkil Stiven Key 44 gün davam edən müharibədən sonra əraziyə dəyən ziyanın qiymətləndirilməsi məqsədilə bölgəyə səfər etdiklərini bildirərək deyir: "Bu münaqişə 1990-cı ilin əvvəllərində ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və Qarabağ bölgəsinə hücumu ilə başlayıb. Bu münaqişənin nəticələri



BMT və Avropa İttifaqına bəlli idi, lakin münaqişə diqqətdən kənarda qalmışdı. Həmin vaxt Qərbin və ABŞ-ın diqqəti Yuqoslaviyada baş verən müharibəyə yönəlmişdi. Halbuki münaqişənin Azərbaycana vurduğu ziyan daha böyük idi.

"9 Bedford Row" qrupunun araşdırmasının ermənilərin dinc sakinləri hədəfə alan 5 hücumunu əhatə etdiyini söyləyən Stiven Key sentyabrın 27-dən başlayaraq ermənilərin Azərbaycanın yaşayış məntəqələrini mütəmadi şəkildə ağır artilleriyadan atəşə tutduğunu bildirib. Sentyabrın 27-də Qaşaltıya (Naftalan şəhəri – red.) hücum zamanı Qurbanovlar ailəsindən 5 nəfər ölüb. Oktyabrın 11-də Gəncəyə "Skad" raketinin atılması nəticəsində təxminən 10 nəfər ölüb, 20-yə yaxın insan yaralanıb. Oktyabrın 17-də Gəncə növbəti dəfə hədəf seçilib. Bu dəfə 6-sı uşaq olmaqla 15 nəfər ölüb, 60 nəfər isə yaralanıb. Bərdəyə oktyabrın 27-də hücum zamanı 7 yaşlı qız daxil olmaqla 5 nəfər ölüb, 12 nəfər isə yaralanıb. Oktyabrın 28-də Bərdə yenidən hədəf seçilib. Hücum zamanı 21 nəfər ölüb, 90 nəfərdən çox insan yaralanıb. Araşdırdığımız bu 5 əsas hücum zamanı 56 dinc insan ölüb, 200 nəfərdən çoxu isə yaralanıb. 44 günlük müharibə zamanı ümumilikdə 100-ə yaxın dinc insan ölüb. Bizim araşdırmalarımız zamanı səfər etdiyimiz yerlər dinc sakinlərin yaşadığı ərazilər idi, hətta onların çoxu Birinci Qarabağ müharibəsi nəticəsində köçkün düşən insanlar idi. Biz yaxınlarını itirmiş insanlarla görüşdük. Bizim məqsədimiz ermənilərin törətdikləri cinayətləri beynəlxalq ictimaiyyətə çatdırmaqdır".

"9 Bedford Row" qrupunun üzvü Corc Kern işğaldan azad olunmuş Füzuli rayonuna səfərin təəssüratını bölüşüb: "Biz noyabrın 21-də dağıdılmış Füzuli bölgəsinə səfər etdik. Füzulinin çox zəngin mədəni tarixi var. Buradakı qədim dövrlərə məxsus olan karvansara və sərdabələr şəhərin mədəniyyət




beşiyi olduğunu sübut edir. Burada dağıdılmamış bir bina yox idi. Yolboyu sıradan çıxmış hərbi texnikalarla rastlaşdıq. Keçdiyimiz kəndlərdə qəbirlərdən meyitlərin çıxarıldığının, qəbir daşlarının dağıdıldığının şahidi olduq".

"9 Bedford Row" qrupunun üzvü Drea Beker işğaldan azad edilmiş ərazilərə səfərlərindən və hazırladıqları hesabatdan bəzi məqamları vurğulayaraq bildirib: "Bizim səfərimiz münaqişədən dərhal sonra idi. Sentyabrın 27-də münaqişə başlayan gündən, demək olar ki, hər gün dinc əhalinin ölüm hadisəsi qeydə alınıb. Səfərimiz zamanı ailə üzvlərini itirmiş insanlarla danışmaq imkanı qazandıq. Qaşaltı kəndində erməni hücumu nəticəsində beş üzvü həlak olan Qurbanovlar ailəsinin sağ qalan yeganə üzvü Nadir Qurbanovla söhbət etdik. Hərbi qulluqçu olan Nadir hücum zamanı evindən 3 kilometr uzaqda olub. Hücum zamanı Nadirin anası, atası, həyat yoldaşı, 13 yaşlı oğlu və qardaşı qızı ölüb. Qurbanovların evi isə tamamilə dağılıb".

Qeyd edək ki, hesabatı Londonda yaşayan həmvətənimiz – "BM Morrison Partners" beynəlxalq hüquq firmasının rəhbəri Fərhad Mirzəyevin təşəbbüsü və iştirakı, həmçinin Azərbaycan Vəkillər Kollegiyasının dəstəyi ilə beynəlxalq cinayət hüququ üzrə tanınmış vəkil, "9 Bedford Row" vəkillər palatasının nümayəndəsi Stiven Keyin başçılıq etdiyi qrup hazırlayıb. Heyət 2020-ci ilin oktyabr-noyabr aylarında ölkəmizdə olub.

Stiven Key Britaniyada "Queen's Counsel" ("Kral məsləhətçisi") statusuna malik nüfuzlu hüquqşünasdır. Bir sıra beynəlxalq məhkəmə proseslərində, o cümlədən keçmiş Yuqoslaviyada hərbi cinayətlər üzrə prosesdə iştirak edib.

# Şirvanşahlar sarayında dahi şairin 880 illiyinə həsr edilmiş ədəbi-bədii gecə

Sentyabrın 3-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Bakı Xoreoqrafiya Akademiyasının dəstəyi ilə Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş tədbir keçiriləcək.

Şirvanşahlar Sarayı Kompleksində gerçəkləşəcək ədəbi-bədii gecədə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsində yaradılan "Dədə Qorqud" Kamera orkestrinin ifasında Azərbaycan bəstəkarlarının Nizaminin sözlərinə yazdıqları əsərlər səsləndiriləcək.

Tədbirdə Türk Şurasının xətti ilə ölkəmizə səfər edən media nümayəndələrinin iştirakı da nəzərdə tutulub.

# Kitab məhsulları vergi və gömrük rüsumundan azad edilə bilər

"Milli Məclisin payız sessiyasında kitab məhsullarının vergi və gömrük rüsumlarından azad edilməsi məsələsi müzakirə ediləcək".

Bunu parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib.

Komitə sədri bildirib ki, payız sessiyasında "2022-ci il üçün dövlət büdcəsi haqqında" qanun layihəsinin, "Lombardlar haqqında" qanun layihəsinin, "Ələt Azad İqtisadi Zonası haqqında" qanuna dəyişiklik edilməsinin, "Vergi Məcəlləsi"nə dəyişikliyin (kitab məhsullarının vergilərdən və gömrük rüsumlarından azad edilməsi) və s. məsələlərin müzakirəsi nəzərdə tutulub.

# Müasir kitab yayımı təcrübəsi

## Moskvada MDB ölkələrinin iştirakı ilə dəyirmi masa

Sentyabrın 10-da Moskva Kitab Evində "Müasir kitab yayımı. Rusiyanın və MDB ölkələrinin kitab ticarəti müəssisələrinin təcrübəsi" mövzusunda dəyirmi masa keçiriləcək.

Dəyirmi masa iştirakçıları hazırkı dövrdə kitab ticarətinin vəziyyəti ilə bağlı aktual məsələləri müzakirə edəcəklər. Tədbirdə ölkəmizi Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva təmsil edəcək.

Müzakirələr başa çatandan sonra 2020-ci ilin yekunlarına əsasən keçirilmiş müsabiqədə qalib gəlmiş kitab ticarəti müəssisələri və kitab mağazaları MDB İcraiyyə Komitəsinin fəxri fərmanları ilə təltif ediləcək.

# Kiyevdə Nizaminin "Leyli və Məcnun" poemasının təqdimatı

Kiyev Beynəlxalq Kitab Sənəti Festivalında ("Kyiv Book Art Fest") dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının Ukrayna dilinə tərcümə olunmuş kitabının təqdimatı olub. Festival 27-29 avqust tarixlərində keçirilib.

Ukraynada "Yaroslavov Val" nəşriyyatında işıq üzü görən kitab Azərbaycan Dövlət Tərcümə Mərkəzinin layihəsidir.

Təqdimatda Ukraynanın Əməkdar incəsənət xadimi, yazıçı, tərcüməçi Aleksey Kononenko Ukrayna-Azərbaycan ədəbi əlaqələrindən və Azərbaycan Dövlət Tərcümə Mərkəzinin bu prosesə verdiyi töhfədən danışıb. Onun sözlərinə görə, "Leyli və Məcnun" poema-




sının Ukraynada nəşri Nizami Gəncəvi irsinin dərindən öyrənilməsi baxımından əhəmiyyətlidir.

Layihənin məsul katibi Marina Qonçaruk Nizami Gəncəvi kimi dünya miqyaslı mütəfəkkirlə bağlı layihənin Ukrayna-Azərbaycan ədəbi-mədəni əlaqələrinin inkişafında xüsusi önəmini vurğulayıb.

Tədbirin sonunda iştirakçılara Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Ukraynada və digər ölkələrdə işıq üzü görmüş kitabları təqdim olunub.

Qeyd edək ki, kitabı Ukrayna dilinə görkəmli şair və mütərcim Leonid Pervomayski tərcümə edib. Kitabın redaktoru şair, mütərcim, filoloq, Azərbaycan mənşəli (atası Camal Hüseynov Gəncədə doğulub – red.) Qriqori Quseynovdur. Ön söz yerində məşhur nizamişünas alim Aqafangel Krımskinin şair haqqında məqaləsi verilib.

# 28 il sonra doğma yurdda

Sentyabrın 2-də Kəlbəcər sakinləri rayonlarının işğaldan azad olunmasından sonra ilk dəfə öz doğma yurdlarını görmək üçün yola çıxıblar.



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə reallaşan səfərdə yaşlı nəslin nümayəndələri, Başlıbel faciəsində şəhid olanların yaxınları, şəhər ziyalıları iştirak edirlər.

Uzun illərdən sonra ilk dəfə doğma yurdlarına ayaq basan kəlbəcərlilər 28 il əvvəl rayonun işğalı zamanı Kəlbəcər-Laçın yolundakı tunelin qarşısında öldürülən həmyerlilərinin xatirəsini yad ediblər. Əraziyə güllər düzülüb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sənan Hüseynov jurnalistlərə açıqlamasında deyib: "Kəlbəcərdə vəziyyət pisləşdiyi üçün 1993-cü il martın 31-də qadınları, uşaqları çıxarmaq qərarı verilmişdi. Buna görə də Kəlbəcərdən Laçına gedən yolda tuneldən 30 kəndin sakinləri çıxarılmalı idi. Ermənilər Göyçə və Laçın istiqamətindən rayonu mühasirəyə almışdı. Həmin günlərdə yük maşını ilə 25 nəfərin, qadın, uşaq və qocaların çıxarılması planlaşdırılmışdı. Ermənilər tunelin çıxışında həmin insanları güllələbarana tutdular. Çoxu öldü, ölməyənləri isə girov götürdülər. Ondan sonra da burada bu cür dəhşətli faciələr yaşandı. Dinc əhalini tunelin ağzında qırırdılar. Təsəvvür edin ki, insanları daşıyan "KamAZ" markalı avtomobilə od vurub, 8 yaşlı uşağı ailəsinin gözləri qarşısında onun içinə atıblar. Laçından gələnlər də burada qətlə yetirilib. Bu qırğınlardan sonra düşməndən qaçmağı bacaran bir nəfər geriyə qayıdaraq əhaliyə tunelin ağzında ermənilərin olduğunu xəbər verib və bundan sonra dinc insanlar qaçmaq üçün dağ yolundan istifadə ediblər".

# 78-ci Venesiya Film Festivalı keçirilir

Sentyabrın 1-də 78-ci Venesiya Beynəlxalq Film Festivalı işə başlayıb. Festival ispan rejissor Pedro Almodovarın "Paralel analar" filmi ilə açılıb. Penelopa Kruzun iştirakı ilə çəkilən ekran işi əsas müsabiqə proqramında yer alıb. Ümumilikdə festivalın baş mükafatı – "Qızıl şir" uğrunda 21 film yarışır.

Açılış mərasimində italiyalı rejissor və aktyor Roberto Benini dünya kinematoqrafiyasına verdiyi töhfəyə görə "Müqəddəs Markın qızıl şiri" mükafatı ilə təltif olunub. Amerikalı aktrisa Ceymi Li Kertis də fəxri "Qızıl şir"ə layiq görülüb.

Sentyabrın 11-dək davam edəcək festivalın münsiflər heyətinə Cənubi Koreya rejissoru Pon Çjun Ho rəhbərlik edir.

# Dünya Səhiyyə Təşkilatı və UNİCEF məktəbləri açmağa çağırır

## Təhsil Nazirliyi vəziyyətin təhlil edildiyini bildirir

Yeni tədris ili ilə əlaqədar uşaqların məktəbə qayıtmağa hazırlaşdığı bir dövrdə virusun ötürülməsini minimuma endirmək üçün tədbirlərin görülməsi hər zamankından daha böyük və həlledici əhəmiyyət kəsb edir.

Bu barədə Dünya Səhiyyə Təşkilatı (DST) və BMT Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliklərinin birgə məlumatında bildirilir.

Qeyd olunur ki, bu tədbirlərə müəllimlər və digər məktəb işçilərinin peyvəndlənməyə əlçatanlığının təmin edilməsi, eləcə də sinif otaqlarının daha yaxşı havalandırılması, siniflərdə daha az şagird sayı, fiziki məsafənin gözlənilməsi, məktəb əməkdaşlarının virusa qarşı müntəzəm yoxlanılması və valideynlərin təhlükəsizlik tədbirləri haqda davamlı məlumatlandırılması kimi tədbirlər vasitəsilə məktəb mühitinin təhlükəsizlik standartlarına uyğunluq baxımından yaxşılaşdırılması daxildir.

Qeyd olunur ki, peyvəndlənmə virusdan ən yaxşı qorunma üsullarından biridir. "İki ilə yaxındır ki, COVİD-19 pandemiyası ilə yaşayırıq və məktəblərin təhlükəsiz şəkildə yenidən açılması ümdə prioritetə çevrilib. Məktəblərin qapanması uzunmüddətli dövrdə böyük mənfi təsirlərə səbəb olur və buna bəraət qazandırmaq çətindir. Hamımız uşaqlarımızın gələcəyini qorumaq naminə məktəblərin təhlükəsiz şəkildə yenidən açılması üçün çalışmalıyıq. Dünya Səhiyyə Təşkilatı, Azərbaycan da daxil olmaqla, ölkələrə COVİD-19 riski və virusun fərqli variantlarının yayılmasını minimuma endirmək üçün tədbirlər görərkən məktəbləri açıq saxlamağı təkidlə tövsiyə edir. Məktəblərin yenidən açılmasında mühüm rol oynayan milli vaksinasiya strategiyasının həyata keçirilməsində yerli tərəfdaşlarımızı dəstəkləyirik", – deyə DST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı bildirib.

"Pandemiya məktəblərin qapanmasının uşaqlar üçün böyük mənfi təsirlər göstərdiyini nümayiş etdirməklə yanaşı, məktəblərin uşaqların təhsili, psixi sağlamlığı və sosial bacarıqları baxımından da əhəmiyyətli rol oynadığını sübuta yetirdi. Uşaqlar və gənclər təhsillərinə bir il də fasilə verilməsi riski ilə üzləşməməlidir. Sentyabrın 15-də məktəblərin təhlükəsiz şəkildə açılmasını təmin etmək və uşaqların məktəbin təqdim etdiyi imkanları əldən verməmələri üçün UNİCEF Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq edir", – deyə UNİCEF-in nümayəndəliyinin rəhbəri Aleks Haykens qeyd edib.

Vurğulanır ki, UNİCEF və DST-nin Azərbaycandakı nümayəndəlikləri ölkədə bütün uşaqların məktəblərə təhlükəsiz qayıdışı naminə valideynlər, müəllimlər və şagirdlər üçün bütün zəruri məlumatlar da daxil olmaqla birgə "Məktəbə qayıdış" kampaniyası üçün Təhsil Nazirliyinə, eləcə də yerli səhiyyə qurumlarına birgə dəstək verəcək.

"Yeni tədris ilinin başlanması ilə bağlı vəziyyət təhlil olunur, bu sahədə aparıcı beynəlxalq qurumların tövsiyələri araşdırılır və buna uyğun olaraq fəaliyyət istiqamətləri müəyyən ediləcək" – bunu isə Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov deyib. O qeyd edib ki, tədrisin bütün pillələri üzrə hansı tarixdə və formada təşkili ilə bağlı qəbul ediləcək qərarlara dair yaxın günlərdə ətraflı məlumat veriləcək.

Qeyd edək ki, qonşu Rusiyada COVİD-19-la bağlı epidemioloji vəziyyət Azərbaycandan heç də yaxşı olmasa da, 1 sentyabrdan orta məktəblərdə ənənəvi qaydada dərslər başlayıb. Ali məktəblərdə isə təhsilin növbəti həftədən hibrid formada (həm ənənəvi, həm distant) başlayacağı bildirilib.

Türkiyədə də COVİD-19 pandemiyası səbəbindən fəaliyyəti müvəqqəti dayandırılan təhsil müəssisələri açılışa hazırlaşır. Sentyabrın 6-dan etibarən ölkənin orta təhsil müəssisələrində ənənəvi təhsilə start veriləcək.

Epidemioloji vəziyyətin daha ağır olduğu Gürcüstanda isə məktəblərdə, eləcə də bağçalarda təhsil və təlim oktyabrın 4-dək bərpa olunmayacaq. Bu barədə Koordinasiya Şurasının Əməliyyat Qərargahının rəhbəri Giorgi Gibradze məlumat verib. Onun sözlərinə görə, məsələyə oktyabr ayında yenidən baxılacaq.

Sentyabrın 1-dən Qazaxıstanda da ənənəvi təhsil bərpa edilib. Bu həm ümumtəhsil məktəblərinə, həm də ali məktəblərə aiddir. Müəllim və digər işçi heyətin koronavirusa qarşı peyvənd olunması isə şərtdir.

Müstəqilliyinin 30 illiyini qeyd edən Qırğızıstanın Prezidenti Sadır Japarov əlamətdar yubiley ərəfəsində ölkə ilə mədəni əlaqələrin inkişafında, dostluq və əməkdaşlığın genişləndirilməsində xidmətləri olan şəxsləri təltif edib. Təltif olunanlar arasında MDB-nin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) rəhbərləri – Azərbaycanın Rusiyadakı səfiri, DHƏF-in sədri Polad Bülbüloğlu, Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi, DHƏF İdarə heyətinin həmsədri Mixail Şvıdkoy və DHƏF-in icraçı direktoru Anatoli İksanov da var.

# Mədəni əlaqələrin inkişafında xidmətlərinə görə

## Polad Bülbüloğlu Qırğızıstanın "Dostluq" ordeni ilə təltif olunub

Avqustun 31-də Prezident Sadır Japarov Polad Bülbüloğlu, Mixail Şvıdkoy və Anatoli İksanovla görüşüb. O, Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun Qırğızıstandakı fəaliyyətini yüksək qiymətləndirib, MDB məkanında mədəni sahədə əlaqələrin möhkəmlənməsində qurumun böyük rolu olduğunu bildirib.

Dövlət başçısı deyib ki, fond hər il Qırğızıstanda mədəni sahədə keçirilən 5-6 layihəni maliyyələşdirir. Gələn il keçiriləcək "Karakol – MDB-nin mədəniyyət paytaxtı" layihəsi də fond tərəfindən dəstəklənəcək.

Sadır Japarov bildirib ki, ölkələr arasında dostluq və əməkdaşlığın genişləndirilməsi sahəsindəki xidmətlərinə görə Mixail Şvıdkoy "Danaker", Polad Bülbüloğlu "Dostluq" ordenlərinə layiq görülüblər, Anatoli İksanov Qırğızıstan Respublikasının Fəxri fərmanı ilə təltif edilib. Mükafatları sahiblərinə təqdim



edən Qırğızıstan rəhbəri onlara bundan sonrakı fəaliyyətlərində uğurlar arzulayıb.

Görüşdə çıxış edən Mixail Şvıdkoy DHƏF-in Qırğızıstanla səmərəli əməkdaşlığından söz açaraq bu il Rusiya ilə Qırğızıstan arasında qeyd olunan qarşılıqlı "Mədəniyyət ili"nə görə də təşəkkürünü bildirib.

Polad Bülbüloğlu təltifə görə minnətdarlığını bildirərək qırğız xalqına böyük Manas zamanından bu yana layiq olduğu inkişaf və uğurlar arzulayıb.

***

Qeyd edək ki, Qırğızıstanın müstəqilliyinin 30 illiyi ilə əlaqədar Bişkek şəhərində Müstəqil Dövlətlər Birliyinin gənclərdən ibarət simfonik orkestrinin konserti keçirilib.

Abdılas Moldıbayev adına Akademik Opera və Balet Teatrında keçirilən konsertdə Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Kayrat İmanaliyev, Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, digər rəsmi şəxslər iştirak ediblər.

Bildirilib ki, Qırğızıstan və DHƏF-in birgə təşkilatçılığı ilə keçirilən konsertin məqsədi MDB ölkələri arasında mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, istedadlı gənclərin üzə çıxarılması və cəmiyyətdə tanınmasıdır.

Orkestrə Rusiya Federasiyasının Xalq artisti Sergey Skripka dirijorluq edib. Konsertdə Polad Bülbüloğlu da çıxış edib və alqışlarla qarşılanıb. Sonda qonaqlara qırğız milli geyimi hədiyyə olunub.

# "Xosrov və Şirin" teleserialının çəkilişləri başa çatıb

Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş 12 bölümdən ibarət "Xosrov və Şirin" bədii teleserialının çəkilişləri başa çatıb.

Layihə Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Azərbaycanfilm" Kinostudiyası və İctimai Televiziya və Radio Yayımları Şirkətinin birgə istehsalıdır.

"Azərbaycanfilm"dən bildirilib ki, "Xosrov və Şirin" serialında poemadakı hadisələrin kompozisiyası və süjeti saxlanılmaqla müasir dövrümüzə proyeksiya olunub.

Çəkilişləri Bakı şəhərinin Mərdəkan, Şüvəlan və Maştağa qəsəbələrində və Qobustan rayonunda aparılan serialın rejissorları Xəyyam Abdullazadə və Elməddin Alıyev, ssenari müəllifləri İlqar Fəhmi



və Xəyyam Abdullazadədir. Xosrov obrazını Rüstəm Cəbrayılov, Şirin obrazını Kəmalə Piriyeva, Fərhadı isə Bəhruz Vaqifoğlu canlandırır.

# İslam Əməkdaşlıq Təşkilatının qarşısında duran vəzifələr

## Baş katiblə xələfinin görüşündə müzakirə edilib

Səudiyyə Ərəbistanında İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif bin Əhməd əl-Osaymin və iki aydan sonra onu bu vəzifədə əvəz edəcək Hissein Brahim Taha qarşıda duran vəzifələri müzakirə ediblər.

Yeni seçilmiş Baş katibə uğurlar arzulayan əl-Osaymin yeni qlobal çağırışlar fonunda İƏT-in fəaliyyətinin daha da gücləndirilməsinin zəruriliyini vurğulayıb.

Görüşdə qeyd olunub ki, təşkilata üzv ölkələr arasında əlaqələrin daha da möhkəmlənməsi böyük əhəmiyyətə malikdir. Hazırda dünyanın ikinci böyük dövlətlərarası təşkilatı olan İƏT 4 qitəni əhatə edir, həmçinin İslam ölkələrinin səsinin beynəlxalq ictimaiyyətə çatdırılmasında, müsəlmanların hüquqlarının müdafiəsində mühüm rol oynayır.

Hissein Brahim Taha ötən ilin noyabrında Nigerin paytaxtı Niameydə keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının 47-ci sessiyasında coğrafi bölgüyə uyğun olaraq, rotasiya qaydasında Afrika qrupunun namizədi kimi təşkilatın Baş katibi seçilib. O, noyabrın 1-də fəaliyyətə başlayacaq.



Bu gün bizi birləşdirən dəyərlər çoxdur. İnsanları birləşdirən və bizi gücləndirən dəyərlərə daha çox diqqət göstərməliyik.

# Qalib xalqın diasporunun da həyatında yeni mərhələ başlayır

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bu fikri Almaniyanın Köln şəhərində Azərbaycan icması ilə görüşdə vurğulayıb.

Komitə sədri ötən il Vətən müharibəsi zamanı Almaniyada izdihamlı Qarabağ mitinqi və digər tədbirlərin keçirildiyini xatırladaraq, artıq qalib xalqın diasporunun həyatında yeni və mühüm mərhələnin başladığını deyib, diasporun güclənmiş şəkildə meydana çıxması üçün gənclərə böyük diqqət göstərilməsini tövsiyə edib.

Görüşdə Köln şəhərində və ətraf regionlarda yaşayan azərbaycanlılar, Almaniyanın aparıcı universitetlərində çalışan soydaşlarımız, türk diasporunun təmsilçiləri iştirak ediblər.

Şimali Reyn Vestfaliya vilayətinin dövlət məmuru Elnur Rixter, Almaniyanın Ruhr Universitetinin dosenti Elxan Sadıqzadə, Almaniya Yazarlar Birliyinin üzvü, yazıçı, tərcüməçi Orxan Aras, Alman–Azərbaycan Dostluq Cəmiyyətinin sədri Naibə Hacıyeva, Almaniyanın "HennaMond" şirkətinin əməkdaşı Samir Həsənov, türk diasporunun üzvü Levent Taşkıran və başqaları çıxış ediblər.

Çıxışlarda Azərbaycan və Türkiyə diasporlarının birliyindən, alman ictimaiyyəti arasında, xüsusilə də mediada Azərbaycan həqiqətlərinin təbliği istiqamətində görülən işlərdən, yerli KİV-lərlə əməkdaşlığın əhəmiyyətindən danışılıb, təkliflər irəli sürülüb.

Dövlət Komitəsinin əməkdaşları Köln şəhərindəki Azərbaycan Evini də ziyarət edib. Bildirilib ki, Azərbaycan evləri soydaşlarımızı bir araya gətirən mərkəz rolunu oynayır. Köln şəhərində və ətrafında yaşayan azərbaycanlılar burada toplaşmalı, görüşlər keçirməli, problemləri dilə gətirməli və müzakirələr təşkil etməlidirlər. Bununla yanaşı, yerli ictimaiyyətin tanınmış şəxsləri və alman jurnalistləri Köln Azərbaycan Evində müxtəlif tədbirlərə dəvət olunmalıdır. Dövlət Komitəsi tərəfindən Köln Azərbaycan Evinə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Dövlət Komitəsinin nümayəndə heyəti Niderlandda da olub, bu ölkədəki Azərbaycan icması ilə görüşlər keçirib. Haaqa şəhərinin "Yeni İkendinen" məzarlığında Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış Xocalı abidəsi ziyarət edilib.

Mərasimdə Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının üzvləri də iştirak ediblər. Hollandiya-Azərbaycan Türk Kültür Dərnəyinin üzvü Yasin Zeynallı çıxış edərək xatırladıb ki, təmsil etdiyi təşkilatın təşəbbüsü ilə 24 fevral 2008-ci ildə burada abidə ucaldılıb. 2020-ci ildə isə çoxsaylı ziyarətçilərin eyni anda bu məkanda toplaşmasının qeyri-mümkün olduğu nəzərə alınıb və abidə daha geniş əraziyə köçürülüb.

## Bölgələrdən xəbərlər




Biləsuvar Regional Mədəniyyət İdarəsi Neftçala rayon MKS-nin Qardaşbəyli kənd kitabxana filialında "Şəhidlər ədalət carçısıdır" başlıqlı kitab sərgisi təşkil edilib.

# Vətən fədailəri – örnək ömürlər

Ağstafa Regional Mədəniyyət İdarəsi Qazax Dövlət Rəsm Qalereyasının dərnək üzvü Ruhin Xasməmmədov Vətən müharibəsinin şəhid giziri Turan Məmmədovun portretini çəkərək ailəsinə təqdim edib. Tovuz rayon Mədəniyyət Mərkəzində rayondan olan şəhid və qazilərin övladlarına "Tıq-tıq xanım" tamaşası göstərilib. Ağstafa Regional Mədəniyyət İdarəsinin dəstəyi, Tovuz rayon Mədəniyyət Mərkəzinin və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Tovuz rayon komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə mərkəzin aktyorlarının ifasında nümayiş olunan səhnəcik balaca tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Tovuz rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları rayonun Əsrik Cırdaxan kəndinin Vətən müharibəsi şəhidi Xəyal Şəkərovun doğum günündə qəhrəmanın adına tikilmiş bulaq kompleksinin açılışında iştirak ediblər.

Kürdəmir Regional Mədəniyyət İdarəsi Beyləqan rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsinin şəhid baş leytenantı Mahir Dadaşzadənin doğum günü münasibətilə tədbir keçirilib. Tədbirdə regional idarənin rəisi Faiq Xudanlı, rayon İcra Hakimiyyətinin əməkdaşları, şəhidin ailə üzvləri, döyüş yoldaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Beyləqan Rayon İcra Hakimiyyəti, Kürdəmir Regional Mədəniyyət İda-



rəsi və "Könüllü Yardım Fondu"nun birgə təşkilatçılığı ilə Beyləqan rayon Mədəniyyət Mərkəzində qazi övladlarının iştirakı ilə tədbir təşkil edilib. Regional idarənin rəisi Faiq Xudanlı şəhid və qazilərimizin qürur yerimiz olduğunu vurğulayıb, onların övladlarının estetik zövqünün inkişafı üçün həyata keçirilən tədbirlərdən söhbət açıb.

Şəki Regional Mədəniyyət İdarəsi Şəkinin Çeşməli kəndində Vətən müharibəsi şəhidi Sakit İsmayılovun adına xatirə bulağının açılışı olub. Mərasimdə regional idarənin əməkdaşları, II Qarabağ müharibəsi iştirakçıları, qazilər, şəhidin ailə üzvləri və kənd sakinləri iştirak ediblər. Qax rayon C.Cabbarlı adına Mərkəzi Kitabxananın əməkdaşları Vətən müharibəsi zamanı düşmən tərəfindən atılan raket nəticəsində şəhid olan mülki vətəndaşların xatirəsini yad etmək məqsədilə Gəncə şəhərinə səfər ediblər.

# Söz sənətinin sönməz günəşi



Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin 1-ci Nügədi kənd kitabxanası müxtəlif yaş qrupundan oxucuların iştirakı ilə "2021-ci il "Nizami Gəncəvi İli"dir" mövzusunda tədbir keçirib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Şamaxı Dövlət Rəsm Qalereyasında Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar "Qəlblərdə yaşayan şair" adlı sərgi təşkil edilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon Heydər Əliyev Mərkəzinin təşəbbüsü və Gəncə Dövlət Mədəniyyət Qoruğu Nizami Gəncəvi Kompleksinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi - Azərbaycanın sönməz günəşi" mövzusunda onlayn konfrans keçirilib. Konfransda Türkiyə Selçuk Universitetinin (Konya) müəllimi Ali Temizel, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı Əzizağa Nəcəfov, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, regionlarda fəaliyyət göstərən bir sıra Heydər Əliyev mərkəzlərinin direktorları və Samux rayon MKS-nin filial kitabxanalarının müdirləri iştirak ediblər. Vasif Cənnətov çıxışında Azərbaycanın dahi şair və mütəfəkkirinin ədəbiyyat tariximizdə yerindən, dünya ədəbiyyatına təsirindən söz açıb. O, Nizami irsinin təbliğində söz ustadının doğulub boya-başa çatdığı Gəncə şəhərinin üzərinə daha böyük məsuliyyətin düşdüyünü vurğulayıb.



Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Heydər Əliyev Mərkəzinin və rayon MKS-nin birgə təşkilatçılığı ilə "Bəşəri ideyalar carçısı" mövzusunda dəyirmi masa keçirilib. Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Nizami Gəncəvi və Şərqdə intibah" adlı tədbir təşkil olunub. Tədbirdə M.P.Vaqif və M.V.Vidadinin Xatirə Muzeyinin və rayon mədəniyyət müəssisələrinin əməkdaşları iştirak ediblər.

# Müxtəlif səpkili tədbirlər



Sabirabad Regional Mədəniyyət İdarəsi Saatlı rayon MKS gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi, oxucuların kitabxanaya cəlb edilməsi və asudə vaxtın səmərəli təşkili məqsədilə "Kitabxana açıq havada" adlı sərgi təşkil ediblər. Şirvan şəhər MKS-nin 3 saylı kitabxana filialı məşhur mesenat Hacı Zeynalabdin Tağıyevin (1838-1924) anım günü (1 sentyabr) ilə əlaqədar "Böyük xeyriyyəçi Zeynalabdin" adlı videoçarx hazırlayıb.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon MKS-nin 35 saylı Mərzili kənd kitabxanası Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın əsərlərinə həsr olunmuş virtual sərgi hazırlayıb.

Ağstafa Regional Mədəniyyət İdarəsi Qazax rayon M.P.Vaqif və M.V.Vidadinin Xatirə Muzeyində 30-31 avqust tarixində azad Şuşada 30 ildən sonra keçirilən Vaqif Poeziya Günlərinə həsr olunmuş tədbir təşkil edilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin Xocavənd rayonu üzrə nümayəndəsi (baş məsləhətçi), yazıçı, ədəbiyyatşünas Ramil Əhmədov Şuşada keçirilən Vaqif Poeziya Günlərində iştirak edib.

Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Heydər Əliyev Mərkəzi "Azərbaycanın fəxri və xilaskarı – Heydər Əliyev" və "Heydər Əliyev liderliyinin qabiliyyət və zəfər rəmzi" başlıqlı videoçarxlar hazırlayıb.

Bərdə Regional Mədəniyyət İdarəsi Tərtər rayon Mədəniyyət Mərkəzinin filialları unudulmaz teatr və kino aktyoru, Xalq artisti Yaşar Nurinin (1951-2012) anadan olmasının 70 illiyi ilə əlaqədar videoçarxlar hazırlayıblar.



Şəki Regional Mədəniyyət İdarəsi Qax rayon Heydər Əliyev Mərkəzində "Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır" mövzusunda tədbir keçirilib. Tədbirdə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı ilə qala-şəhərimizdə aparılan bərpa-quruculuq işlərindən bəhs edən film nümayiş olunub. Oğuz rayon MKS-nin Filfilli kənd kitabxana filialında "Sənin nağıl dünyan" adlı "oxu saatı" təşkil edilib.



İsmayıllı Regional Mədəniyyət İdarəsi, rayon Təhsil şöbəsi, Gənclər və idman idarəsi və İsmayıllı İntellektual oyunlar klubunun birgə təşkilatçılığı ilə "Yay təcrübə proqramı" adlı layihə həyata keçirilib. İştirakçıların İsmayıllı Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Nəcəfov və Gənclər və idman idarəsinin rəisi Taleh Salehovla görüşü olub. Görüşdə Elçin Nəcəfov regional idarənin fəaliyyəti, strukturu, keçirilən layihələrlə bağlı ətraflı məlumat verib, gəncləri maraqlandıran sualları cavablandırıb.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi Əməkdar müəllim, jurnalist Fərman Əzizli, Əməkdar mühəndis, Prezidentin fərdi təqaüdçüsü Kamil Məmmədov və professor Telman Nizamovla görüş keçirib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Neftçala rayon MKS-nin Həsənabad qəsəbə kitabxana filialında "Qoy həmişə sülh olsun" başlıqlı virtual sərgi nümayiş olunub.

Hazırladı: N.MƏMMƏDLİ

# “Bütün dünya bu vandalizmi görsün”

## Xarici media təmsilçilərinin daha bir qrupu işğaldan azad edilmiş ərazilərdə olub

Avqustun 31-dən Türk Şurasının üzvü olan Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, qurumda müşahidəçi statuslu Macarıstan, həmçinin Bosniya və Herseqovina, Makedoniya və Serbiyadan gəlmiş jurnalistlərin Azərbaycanın azad olunmuş ərazilərinə səfəri başlayıb.



Əcnəbi media mənsubları səfərin ilk günü əvvəlcə işğaldan azad edilən Füzuli rayonunda Minatəmizləmə Agentliyinin nümayəndələri ilə görüşüb, minalanmış sahələrin təmizlənməsi prosesini izləyiblər. Füzuli-Cəbrayıl yolunda minatəmizləmə işləri ilə tanış olan jurnalistlərə bildirilib ki, Ermənistan tərəfi otuz ilə yaxın davam edən işğal dövründə Azərbaycan torpaqlarına yüz minlərlə mina basdırıb. Ötən il 44 günlük müharibədə işğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir. Müharibədən sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşı həlak olub, 100-dən çox insan yaralanıb. Beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş bütün ərazilərin dəqiq olan mina xəritələrini Azərbaycana versin. Çünki bəzi rayonların mina xəritələrini versələr də, onların dəqiqliyi 25 faizə bərabərdir.

Diqqətə çatdırılıb ki, Qarğabazar istiqamətində uzunluğu 12 kilometr olan yol üç hissəyə bölünməklə təmizlənir. Birinci hissə - 180 min kvadratmetr ərazi təmizlənərək təhvil verilib. Yolun ikinci hissəsində 289 min kvadratmetr sahədə işlər yekunlaşıb və 174 ədəd mina və partlamamış silah-sursat aşkarlanıb. Növbəti mərhələdə isə yolun üçüncü hissəsi təmizlənəcək. Ərazidə əsasən Rusiya istehsalı olan tank əleyhinə və Ermənistan istehsalı olan piyada əleyhinə minalar basdırılıb. Minatəmizləmə prosesi əsasən üç üsulla - əl ilə, mexaniki yolla və xüsusi təlim keçmiş itlər vasitəsilə aparılır.

Xarici media mənsubları daha sonra işğaldan azad olunan Cəbrayıl rayonuna gəliblər. Ermənilər tərəfindən dağıdılan rayon mərkəzinin xarabalıqları ilə tanış olan jurnalistlərə bildirilib ki, işğaldan öncə Cəbrayıl tarixi abidələrin, dini məbədlərin zəngin olduğu məkan kimi, eləcə də səfalı təbiəti ilə tanınırdı. Lakin işğaldan sonra bütün bunlardan əsər-əlamət qalmayıb. Heyət vandalizmə məruz qalmış qəbiristanlıqlardan birində olublar. Qırğızıstanlı jurnalistlər burada basdırılan sakinlərin, eləcə də şəhidlərimizin ruhuna dualar ediblər.



Türkiyənin Anadolu Agentliyinin əməkdaşı Burcu Çalık Göçümlü təəssüratlarını bölüşərək bildirib ki, ermənilər məzarları qazaraq meyitləri çıxarıblar, onların qızıl dişlərini götürüblər: “Bu cür vəhşilik, barbarlıq edənlər insan ola bilməzlər. Ümid edirəm ki, buralar yenidən canlanacaq və azərbaycanlıların öz yurdlarında xoşbəxt yaşadıqlarının şahidi olacağıq”.

Makedoniyalı jurnalist Boyan Stoykovski isə deyib ki, geri qayıtdıqdan sonra həm Balkan ölkələri, həm də beynəlxalq ictimaiyyət üçün yazılar hazırlayacaq: “Yazılarımda bütün bu vəhşilikləri olduğu kimi qeyd edəcəyəm. Qoy, bütün dünya bu vandalizmi görsün”.

Sentyabrın 1-də xarici media təmsilçiləri Şuşaya gəliblər. Qonaqlar Xurşudbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün Birinci Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən güllələnmiş abidələrini ziyarət ediblər. Jurnalistlər Natəvanın dağıdılmış evi və Xan sarayının qalıqları ilə tanış olublar. Onlara



bu qədim tikililərin tarixi haqqında məlumat verilib. Qonaqlar, həmçinin Yuxarı Gövhər ağa məscidini ziyarət ediblər.

Jurnalistlər Şuşa qalasında və Cıdır düzündə olublar. Bildirilib ki, Şuşa şəhəri 1752-ci ildə Pənahəli xan tərəfindən salınıb. Qala divarları şəhəri daim düşmən hücumundan qoruyub. Cıdır düzü isə Şuşanın ən görməli məkanlarından biridir. Burada Qarabağ atlarının iştirakı ilə yarışlar keçirilirdi.

Qonaqlar böyük şair Vaqifin bərpa edilmiş məqbərəsində də olublar. Qeyd olunub ki, məqbərə ilk dəfə 1982-ci il yanvarın 14-də ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb. Erməni işğalı dövründə məqbərə qarət edilib və dağıdılıb. Şuşa azad edildikdən sonra Prezident İlham Əliyevin tapşırığı ilə məqbərə bərpa edilərək yenidən əvvəlki görkəminə qaytarılıb.

Əcnəbi jurnalistlər 2020-ci ildə 44 günlük müharibə zamanı Ermənistan ordusunun raket zərbələrinin hədəfi olmuş Gəncəyə də səfər ediblər. Onlar şəhərdə mülki şəxslərin öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə baş çəkiblər. Məlumat verilib ki, düşmənin Azərbaycanın ikinci böyük şəhəri, münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 142 nəfər yaralanıb.

Sentyabrın 2-də xarici media təmsilçiləri Ağdama səfər ediblər. Səfər proqramı Ağdam Cümə məscidində, İmarət kompleksi, Qiyaslı məscidi və digər məkanları əhatə edib.

# Qarabağ və Şərqi Zəngəzurun yeni yolları

## 10 istiqamətdə 665 km yol çəkiləcək




Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını əhatə edən rayonlarda inşa olunan avtomobil yollarının xəritəsini dərc edib.

Xəritə ümumi uzunluğu 665,4 km olan və hazırda tikilən 10 əsas avtomobil yolunu əhatə edir. Bundan əlavə, xəritədə tikintisi nəzərdə tutulan, lakin uzunluğu qeyd olunmayan avtomobil yolları da daxildir.

Xəritə Füzulidən Şuşaya çəkilən “Zəfər” yolunu (101 km), Əhmədbəyli-Füzuli-Şuşa magistralını (81.6 km), Toğanalı-Kəlbəcər-İstisu (80.7 km), Kəlbəcər-Laçın (72.3 km), Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd (123.8 km), Talış-Tapqaraqoyunlu-Qaşaltı (22 km), Xudafərin-Qubadlı-Laçın (83 km), Şükürbəyli-Cəbrayıl-Hadrut (43 km), Füzuli-Hadrut (13 km), Bərdə-Ağdam (45 km) avtomobil yollarını əhatə edir.

# Böyük Britaniya ərazilərin minalardan təmizlənməsi üçün vəsait ayırıb

Birləşmiş Krallıq ötənilki münaqişədən sonra Dağlıq Qarabağ bölgəsində və ətrafındakı ərazilərdə minaların təmizlənməsi, ərazinin təhlükəsizliyinin təmin olunması üçün yarım milyon funt-sterlinq ayırıb.

Bu barədə Böyük Britaniyanın Azərbaycandakı Səfirliyinin məlumatında bildirilir. Qeyd olunur ki, BMT İnkişaf Proqramına verilən vəsait mina təmizlənməsini dəstəkləmək, Dağlıq Qarabağda və ətrafındakı bölgələrdə çirklənmiş əraziləri insanların istifadəsi üçün təhlükəsiz hala gətirmək üçün təlim və kadr hazırlığına kömək edəcək.

“Bölgədəki müsbət dəyişikliyə doğru fəaliyyətlərin aparıcı qüvvəsi olaraq Birləşmiş Krallıq 2020-ci il Dağlıq Qarabağ münaqişəsindən sonra humanitar dəstəyi elan edən ilk ölkə olub və zərərçəkmiş insanları dəstəkləmək üçün




Beynəlxalq Qızıl Xaç Komitəsinə 1 milyon funt-sterlinq ianə edib. Hazırda isə Birləşmiş Krallıq münaqişə və ya partlamamış hərbi sursat səbəbi ilə evlərindən didərgin düşən əhalinin öz həyatlarını yenidən qurmasına və bölgəyə qayıtmasına kömək etməsinə dəstək üçün digər ölkələri də BMT-nin təşəbbüsünü dəstəkləməyə çağırır”, - deyə məlumatda vurğulanır.

# Azərbaycanda ən incə geyimlər Qarabağda olub

2021-ci il avqustun 30-u ölkəmizin ictimai həyatında bir sıra mühüm və əlamətdar hadisələrlə yadda qalacaq. Bu duyğusal, qəlbimizi riqqətə gətirən, uzun illərin ayrılığından sonra xalqımızın mədəni tarixinə qızıl hərflərlə yazılan günlər, bənzərsiz hadisələrdir. Biz tariximizin ən şərəfli dövrünü yaşayırıq. Biz yenidən Azərbaycanın mədəniyyət beşiyi, Qarabağın ürəyi, Vətənimizin ayrılmaz hissəsi, canı, hər birimiz üçün azadlıq rəmzi olan Şuşaya qayıtdıq. 28 il biz bu torpağın həsrətində qaldıq. Azərbaycan xalqının ruhu, döyünən qəlbi, buludlar qoynunda cənnətin bir guşəsini xatırladan, “Qafqazın sənət məbədi”, “Azərbaycan musiqisinin beşiyi” və “Zaqafqaziyanın konservatoriyası” adlandırılan Şuşa öz qoynunu doğmalarına açıb, sanki gələn qonaqları bağrına basırdı!

Bildiyimiz kimi, Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə erməni vandalları 600-ə yaxın tarixi-memarlıq abidəsini, xalqımızın tarixi-mədəni irsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşudbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini və s. yerlə yeksan etmişlər. Amma müzəffər Ordumuzun Ali Baş Komandanı Prezident İlham Əliyevin “Xarıbülbül” festivalının açılış mərasimində qeyd etdiyi kimi: “Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi”.

Zəfər günündən az vaxt keçməsinə baxmayaraq, artıq Şuşa sürətlə dirçəlir, yenidən öz gözəlliyinə qovuşur. Şuşanın dirçəlməsi üçün dövlətimiz tərəfindən, Heydər Əliyev Fondu tərəfindən əməli addımlar atılır.

Cıdır düzündə Qarabağın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş “Xarıbülbül” festivalı, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə ucaldılmış böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günləri keçirildi. Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, Bülbülün evi bərpa olundu, yenidən muzeyi yaradıldı, “Qarabağ” hoteli əsaslı təmirdən sonra öz qapılarını yenidən qonaqların üzünə açdı.

Vaqif Poeziya Günləri çərçivəsində avqustun 30-da Şuşadakı Yaradıcılıq Mərkəzində “Yaddaş. Fotoqrafik tarix”, Rəsm Qalereyasında “Qarabağ – Azərbaycan mədəniyyətinin incisidir” və Xalçaçılıq Qalereyasında “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” adlı sərgilərin açılışı oldu. Bütün bunlar bu müqəddəs torpaqların əsl yiyəsinin, sahibinin kim olduğunu bir daha bütün dünyaya bəyan edib.

Bildiyimiz kimi, Şuşa ölkəmizə, xalqımıza mədəniyyətin müxtəlif sahələrində görkəmli sənətkarlar bəxş etmişdir. Bu mənada Qarabağ, ümumiyyətlə, bütün dünyada ən məşhur xalçaçılıq mərkəzlərindən biri kimi tanınır. Xalça sənəti xalqımızın yaradıcılıq irsinin ən parlaq nümunəsidir. O, xalqımızın estetik dünyagörüşünün formalaşmasında, məişətinin təşkilində mühüm rol oynamışdır. Azərbaycan mədəniyyətində xalça, sadəcə, bir ev





bəzək elementi və ya hər hansı bayram və mərasimlərin bir hissəsi deyildi; o, özündə bir-birini əvəz edən tarixi dövr və üslubların çoxsaylı mədəni laylarını cəmləşdirərək bədii zövqün və mentalitetin özünəməxsusluğunu əks etdirir. Azərbaycan xalqı həyatını xalçasız təsəvvür etmir və onunla bağlı bir çox ənənələr bizim günümüzə qədər qorunub saxlanılmışdır. Xalça üzərində dünyaya göz açır, ilk addımlarımızı atır, xalçaların əhatəsində yaşayır və xalça üzərində insan son mənzilə yola salınır.

Məhz buna görə də dünyada ilk xalça muzeyinin Azərbaycanda yaradılması qanunauyğun idi. Yarandığı gündən etibarən muzey dünyanın ən zəngin Azərbaycan xalçaları kolleksiyasına malik mədəniyyət ocağıdır.

Onun yaradılması, fondunun komplektləşdirilməsi və dünya muzeyləri ilə beynəlxalq əlaqələrin qurulmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xüsusi rolu olmuşdur. Ulu öndərin sərəncamları əsasında muzey kolleksiyasının zənginləşdirilməsi məqsədilə hər il dövlət büdcəsindən əsaslı vəsaitlər ayrılmışdır.

Bu gün də həmin mütərəqqi siyasət Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilərək həyata keçirilir.

Muzeyimizin Bakının simvollarından birinə çevrilmiş binasının tikintisi, xalça və kələğayı sənətlərinin UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilməsi həm dövlətimizin, həm də Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mədəniyyət sahəsində uğurlu fəaliyyətinin nəticəsidir. Son illər Fond tərəfindən dünya miqyaslı nadir sənət əsərlərinin, o cümlədən XVII əsr Qarabağ saray xalçalarının alınaraq muzeyə bağışlanması da mühüm mədəni əhəmiyyətə malik hadisədir.

Qeyd edim ki, məhz Qarabağda toxunan xalçalar dünyada yüksək qiymətləndirilir və bu günə qədər hərraclarda ən çox satılan, özəl və muzey kolleksiyalarını bəzəyən nümunələrdir. Azərbaycan mədəniyyətinin dünyada elçiləri olan Qarabağ xalçaları bu gün ən iri muzeylərin ekspozisiyalarının yaraşığıdır.

Bu gün insanların qayıtması ilə yanaşı, Qarabağ xalçatoxuma ənənələrinin qayıtması – mədəniyyətimizin burada dirçəlməsi deməkdir. Bu faktor ölkəmiz üçün böyük tarixi əhəmiyyətə malikdir.

Bir qədər də “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” adlı sərgimiz haqqında danışmaq istərdim. Sərginin adı bizim üçün çox simvolikdir.

Heydər Əliyev Fondu tərəfindən bərpa və təmir olunaraq yaradılan Xalçaçılıq Qalereyasında Fondun təşkilatçılığı ilə Azərbaycan Milli Xalça Muzeyinin təqdim etdiyi sərgidəki eksponatların əksəriyyəti vaxtilə Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında nümayiş olunmuşdur. Filial 1987-ci ildən Mehmandarovların imarətində fəaliyyət göstərmiş, 1992-ci ildə Şuşanın işğalından bir neçə ay öncə buradakı eksponatlar xilas olunaraq təxliyə olunmuş və bu günə qədər Bakıdakı muzeydə sərgilənirdilər. Bu səbəbdən biz məhz bu günü, yeni eksponatların ilk vətəninə qayıtmasını illərlə intizarla gözləmişik.

Sərgidə Qarabağın ən gözəl xalçaçılıq ənənələrini parlaq şəkildə əks etdirən nümunələr nümayiş olunur. Burada füsunkar gözəlliyi, mükəmməl kompozisiyası, rəngarəng koloriti və iri ölçüləri ilə məşhur olan əsrarəngiz saray xalçaları, həm maldarlıqla məşğul olan tayfaların dünyagörüşünü özündə yaşadan dərin semantikaya malik autentik xalçalar, həm də şəhər mədəniyyətini özündə əks etdirən süjetli xalçalar nümayiş olunur. Onlara vərni, zili kimi mükəmməl xovsuz xalçalar, “Çələbi”, “Ləmpə”, “Malıbəyli”, “Qasımuşağı”, “Əyan məclisi” və s. kimi məşhur xovlu xalçalar aiddir. İri ölçülü, mükəmməl kompozisiya quruluşu və əlvan koloriti ilə “Ləmpə” dəst xalı-gəbəsi Şuşa ab-havasını, cah-cəlalını özündə yaşadan, xüsusi maraq doğuran eksponatlardandır. Təqdim etdiyimiz və ümumilikdə 35 eksponatdan ibarət sərgidə xovlu və xovsuz xalçalarla yanaşı, o dövrdə insanların məişətində mühüm yer tutan xalça məmulatları, milli tikmə və geyim dəstləri, bədii metal nümunələri də nümayiş olunur. Sərgilənən Qarabağ tipli hər iki milli geyim dəsti öz zərifliyi və incəliyi ilə seçilir. Ümumiyyətlə, Azərbaycanda ən incə geyimlər Qarabağda olub.

Nümayiş olunan qoşa tikmə panno təkəlduz texnikasında məxmər üzərində ipək saplarla işlənilib. Beləliklə, “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” sərgisi qədim torpağın ruhunu, əsrlərlə burada yaşayıb-yaradan insanların həyat və məişətini, estetik zövqünü, sənətkarların bədii dünyagörüşünü duymağa, həmin tarixi dövrlərə səyahət etməyə imkan yaradır.

**Şirin MƏLİKOVA**
**Azərbaycan Milli Xalça Muzeyinin direktoru**

# Şəhid mədəniyyət işçisinin adına abidə-bulaq kompleksinin açılışı keçirildi





*əvvəli səh. 1-də*

Cəbrayıl rayonundan millət vəkili Ceyhun Məmmədov bildirdi ki, ölkəmiz tarixinin ən şanlı günlərini yaşayır: "Bu gün sevinirik ki, torpaqlarımız işğaldan azad olunub. Avqustun 23-nü biz hər il Cəbrayıl rayonunun işğal günü kimi qeyd edirdik. Artıq bu gün yoxdur, 4 oktyabr var. Biz hər il 4 oktyabrı Cəbrayılın azad olunması günü kimi qeyd edəcəyik. Vətən müharibəsində bir daha sübut etdik ki, bizim xalq böyük və cəsarətli, qələbəyə layiq xalqdır. Bu Qələbəni Prezident İlham Əliyevin diplomatik və hərbi müstəvidə həyata keçirdiyi siyasət, gənclərimizin qəhrəmanlığı və xalqımızın birliyi təmin etdi. Bu gün dövlət səviyyəsində şəhid ailələrinə və qazilərə yüksək diqqət-qayğı var. Şəhid ailələri bilsinlər ki, biz hər zaman onların yanındayıq".

Mərasimdə çıxış edən Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Cəbrayıl rayon filialının sədri Səbuhi Hüseynov vurğuladı ki, Cəbrayıl rayonu işğal olunan zaman Zaminin beş yaşı var idi: "Bu gün şəhid olan igidlərimizin bir çoxu uşaq yaşlarında doğma yurdlarından didərgin düşən gənclərdir. Məhz onların qəhrəmanlıqları sayəsində bizlər Qarabağımıza qovuşduq. Allah Zaminə və bütün şəhidlərimizə rəhmət eləsin".

Cəbrayıl rayonu Mahmudlu kənd Uşaq musiqi məktəbinin müəllimi Xankişi Səfquliyev Zamin Rəhimov haqqında xatirələrindən danışdı. Məktəbin şagirdləri Cavidan Qənbərov, Almaz Rəşidli və Yağmur Rəhimlinin ifasında şeir parçaları səsləndirildi.

Daha sonra bulaq-abidənin üzərindəki örtük qaldırıldı, iştirakçılar bulaqdan su içdilər.

Sonda şəhidin atası Vahid Rəhimov çıxış edərək göstərilən diqqətə görə dövlət başçısına və mərasim iştirakçılarına minnətdarlığını bildirdi.

Qeyd edək ki, Zamin Rəhimov 1988-ci il aprelin 21-də Cəbrayıl rayonunun Məzrə kəndində dünyaya göz açıb. 1995-ci ildə Biləsuvar rayonunda yerləşən 2 saylı məcburi köçkün qəsəbəsindəki məktəbin 1-ci sinfinə gedib, sonra Bakıya köçüb və təhsilini Abşeron rayonunun Masazır qəsəbəsində müvəqqəti yerləşən Ə.Veysəlov adına Cəbrayıl rayon Sirik kənd tam orta məktəbində davam etdirib. Orta məktəbi bitirəndən sonra 2006-cı ildə hərbi xidmətə gedib.

Kiçik yaşlarından musiqiyə həvəs göstərən Zamin hərbi xidmətdən qayıtdıqdan sonra Şuşa Musiqi Texnikumunda qarmon ixtisası üzrə təhsil alıb. 2012-ci ildə Bakı şəhərində müvəqqəti yerləşən Cəbrayıl rayon Mahmudlu kənd Uşaq musiqi məktəbində qarmon müəllimi kimi fəaliyyətə başlayıb.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Zamin Rəhimov da cəbhəyə yollanır. Ən böyük arzusu bütün işğal altındakı torpaqlarımızın, o cümlədən doğma yurdu Cəbrayılın düşməndən azad olunması idi. Oktyabrın 4-də Cəbrayıl şəhəri işğaldan azad edilir. Zamin oktyabrın 8-də Cəbrayıl rayonu ərazisində gedən döyüşlərdə şəhid olur.

Binəqədi rayonunun Biləcəri qəsəbə qəbiristanlığında dəfn edilən Zamin Rəhimov dövlət başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

**Nurəddin MƏMMƏDLİ**

# "Şuşa yenidən öz tarixi günlərini yaşayır"

Bizim hər birimiz, ümumilikdə Türk dünyası üçün sevindirici və qürurverici haldır ki, Azərbaycanın ayrılmaz parçası olan Qarabağ, Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa yenidən öz tarixi günlərini yaşayır.



Bu sözləri 30-31 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günlərinin iştirakçısı olmuş Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva deyib.

"İllər sonra burada Azərbaycanın böyük sənətkarlarının, klassiklərimizin, müasir şairlərimizin şeirləri səsləndirilirsə, Azərbaycan muğamının səsi yayılırsa, "Qarabağ şikəstəsi" dinlənildikdə artıq ürək yanğısı deyil, fəxarət hissi keçirilirsə, bu o deməkdir ki, Şuşa yenidən öz nəfəsini alır, xoşbəxt günlərinə qayıdır.

Bizə bu Qələbəni bəxş edən, gözəl Qarabağımızı, Azərbaycan mədəniyyətinin incisi Şuşanı bizə qaytaran Ali Baş Komandana və qəhrəman hərbçilərimizə minnətdarıq. Əminəm ki, yenidən burada bir-birindən gözəl tədbirlər təşkil ediləcək, Qarabağ öz mədəni irsi ilə bir daha dünyanın incilərindən olacaq. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da bu səpkidə bir çox layihələrini Azərbaycanın bu dilbər guşələrində keçirəcək", – deyə G.Əfəndiyeva bildirib.

# Vaqif Poeziya Günlərinin bərpası ədəbiyyat tariximizə töhfədir

"Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı çox əlamətdar hadisədir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada keçirilən Vaqif Poeziya Günləri ədəbiyyat tariximizdə böyük əhəmiyyət kəsb edir" – Şuşada poeziya bayramının iştirakçısı olmuş AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Elnarə Akimova təəssüratını bölüşərkən belə deyib.

Ədəbiyyatşünas bildirib ki, Vaqif Poeziya Günlərinin bərpası ümumilikdə ədəbiyyat tariximizə töhfədir: "Poeziya günləri çərçivəsində keçirilən simpoziumda Molla Pənah Vaqifin yaradıcılığına xüsusi yer ayrıldı, şairin yaradıcılığının ədəbiyyata təsiri məsələləri müzakirə olundu. Düşünürəm ki, Vaqif Poeziya Günlərinin ənənəvi olaraq hər il keçirilməsi şairin yaradıcılığını ədəbiyyatşünaslığımızın gündəmində saxlayacaq".

# VI "Animafilm" festivalı başlanır

## Müsabiqə proqramında 40 ölkədən 134 film var

Sentyabrın 1-də Azərbaycan Kinematoqrafçılar İttifaqında Bakıda keçiriləcək VI "Animafilm" Beynəlxalq Animasiya Festivalı ilə əlaqədar mətbuat konfransı təşkil olunub.

Festivalın direktoru Rəşid Ağamalıyev sentyabrın 3-dən 7-dək davam edəcək "Animafilm"də uşaqlar və böyüklər üçün çəkilmiş yerli və xarici animasiya filmlərinin nümayiş etdiriləcəyini bildirib. Qeyd edib ki, builki festival "Əlillik" mövzusuna həsr olunub.

Festivalın müsabiqə proqramında 40 ölkədən 134 film iştirak edəcək. İştirakçılar 12 yerli və xarici kateqoriya üzrə mükafat uğrunda yarışacaqlar. Eyni zamanda müsabiqədənkənar proqramlar da nəzərdə tutulub. Festivalda iştirak ödənişlidir, əldə olunan gəlir fiziki məhdudiyyətli uşaqların ehtiyacları üçün sərf ediləcək.



Təqdim olunan filmlər orijinal dildə, bəzi filmlər isə Azərbaycan və ingilis dillərində alt yazılarla Azərbaycan Kinematoqrafçılar İttifaqında və "Salaam Cinema"da nümayiş etdiriləcək.

Digər çıxış edənlər də festivalın əhəmiyyətindən danışıblar. Məlumat verilib ki, müsabiqənin münsiflər heyətində uşaqlar da təmsil olunur. Festivalda "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" kateqoriyası üzrə mükafat da təqdim ediləcək. Mükafatın qalibi 2022-ci ildə Fransada keçiriləcək "Annecy" festivalına (Annecy International Animated Film Festival and Market – MİFA) səyahət və "MİFA" peşəkar akkreditasiyası əldə edəcək.

Festivalın təşkilatçıları göstərilən dəstəyə görə Mədəniyyət Nazirliyinə, Azərbaycan Kinematoqrafçılar İttifaqına, "YARAT" Müasir İncəsənət Mərkəzinə, Kreativ Azərbaycan portalına, Fransanın və Çexiyanın ölkəmizdəki səfirliklərinə və digər təşkilatlara minnətdarlıqlarını çatdırıblar. Festivalın pandemiya şəraiti nəzərə alınaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarları əsasında təşkil olunması planlaşdırılır.

Konfransın sonunda autizm xəstəliyindən əziyyət çəkən gəncin həyat və sevgisindən bəhs edən animasiya filmi nümayiş olunub.

# "Yenidən sevmək öyrətdi – Var olsun ayrılıqları..."

Tanınmış şair, jurnalist, ssenarist, Azərbaycan Yazıçılar Birliyinin üzvü Əhməd Oğuz 31 avqust 2021-ci il tarixində, ömrünün 59-cu ilində vəfat edib.



Əhməd Musa oğlu Kərimov (Əhməd Oğuz) 1961-ci il noyabrın 13-də Qərbi Azərbaycanın (indiki Ermənistan ərazisi) Kalinino rayonunun Qızıl Şəfəq kəndində anadan olub. Doğulduğu kənddə orta məktəbi bitirib. 1978-1982-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun (ADPU) Dil və ədəbiyyat fakültəsində təhsil alıb. Quba rayonunun Hacıqaib və Kalinino rayonunun Soyuqbulaq kəndlərində dil və ədəbiyyat müəllimi işləyib. 1989-cu ildə Ermənistandakı ata-baba yurdundan zorla qovulduqdan sonra "Azərbaycan" qəzeti redaksiyasında müxbir kimi fəaliyyət göstərib. 1991-1993-cü illərdə "Xəzər" jurnalında şeir şöbəsinə rəhbərlik edib, "Oğuz eli" qəzeti redaksiyasında məsul katib işləyib. 1993-cü ildən Azərbaycan Radiosunda Xalq yaradıcılığı baş redaksiyasında şöbə müdiri vəzifəsində çalışıb. Radio dinləyicilərinin böyük rəğbətlə qarşıladığı məşhur "Bulaq" verilişinin mətn müəlliflərindən biri olub.

Əhməd Oğuz bədii yaradıcılığa erkən başlasa da, ilk şeirləri keçən əsrin 80-ci illərinin əvvəllərindən "Ulduz", "Azərbaycan" jurnallarında, "Ədəbiyyat və incəsənət" qəzetində müntəzəm çap olunub. "Hara gedirsiniz, dağlar?" adlı ilk şeirlər kitabı 1998-ci ildə nəşr edilib.

"Azərbaycantelefilm" yaradıcılıq birliyində Əhməd Oğuzun ssenariləri əsasında 20-dən çox sənədli film ("Bağlı qapı", "Deportasiya", "O quzeylər", "Molla Pənah Vaqif" və b.) lentə alınıb. "Bağlı qapı" sənədli filminə görə müəllif "Humay" mükafatına layiq görülüb. Azərbaycan Dövlət Tərcümə Mərkəzinin nəşr etdirdiyi "Türkiyə ədəbiyyatı antologiyası - poeziya" kitabını tərtib edib, şeirləri dilimizə uyğunlaşdırıb.

Allah rəhmət eləsin.

# Ancaq COVİD pasportu və vaksin sertifikatı ilə

## Mehmanxanaların fəaliyyəti onlayn görüşdə müzakirə edilib

Dövlət Turizm Agentliyin 250-yə yaxın mehmanxana nümayəndəsi ilə onlayn görüş təşkil edib. Görüşdə mehmanxanaların xüsusi karantin rejimi dövründə fəaliyyətinə dair tələblər müzakirə olunub.

Nazirlər Kabinetinin müvafiq qərarları ilə müəyyən olunmuş "Koronavirus (COVİD-19) pandemiyası dövründə Azərbaycan Respublikasında mehmanxanaların fəaliyyətinin təşkili Qaydaları", eləcə də tətbiq olunan məhdudiyyətlər haqqında mehmanxana subyektlərinin nümayəndələrinə ətraflı məlumat verilib.



İştirakçılar sentyabrın 1-dən etibarən mehmanxanalarda yaşı 18-dən yuxarı olan şəxslərə göstərilən xidmətlərin yalnız COVİD-19 pasportu (peyvənd sertifikatı) əsasında həyata keçirilməsi tələbi ilə əlaqədar bunun üçün hazırlanmış xüsusi mobil tətbiq barəsində məlumatlandırılıb. Elektron Hökumətin İnkişafı Mərkəzinin nümayəndəsi mobil tətbiqin istifadəsi ilə bağlı sualları cavablandırıb.

Dövlət Turizm Agentliyinin nümayəndələri iştirakçılara COVİD-19 pasportunun tələb olunduğu qonaq kateqoriyası, eləcə də mehmanxanada çalışan işçilərin peyvənd olunması ilə bağlı tələbləri ətraflı izah ediblər.

Onlayn görüşdə Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi, Elektron Hökumətin İnkişafı Mərkəzi, Dövlət Vergi Xidmətinin əməkdaşları iştirak ediblər.

# Ali məktəblərə müsabiqədənkənar qəbul olunanlar

Xəbər verildiyi kimi, Dövlət İmtahan Mərkəzinin (DİM) keçirdiyi qəbul imtahanlarının nəticələri əsasında abituriyentlərin müvafiq qruplar üzrə ixtisas seçimi 31 avqustda başa çatıb. Ali məktəblərə ixtisaslar üzrə yerləşdirmənin nəticələri DİM tərəfindən elan ediləcək.

Bununla yanaşı, qəbul qaydalarına əsasən, beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri, həmçinin beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil alan abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malikdirlər.

DİM-dən bildirilib ki, artıq 2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malik olan şəxslər bəllidir.

Bu il 4 nəfər beynəlxalq fənn olimpiadası, 33 nəfər respublika fənn olimpiadası, 49 nəfər idman, 1 nəfər incəsənət sahəsi üzrə beynəlxalq yarışların qalibi olduğu üçün, 8 nəfər beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları (İB Diploma Programme) üzrə təhsil aldığı üçün müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunmaq hüququ qazanaraq müvafiq ixtisaslara yerləşdirilib.

13 abituriyent isə müsabiqədənkənar qəbul olmaq hüququndan imtina edib və müsabiqədə ümumi qaydalarla iştirak edəcəklərini qeyd edib.

Bundan əlavə, 138 abituriyent SAT imtahanının nəticələrinə əsasən, 163 abituriyent ADA məktəbinin məzunu kimi ADA Universitetinə qəbul olunub.

# "Nizami əlifbası" ilə yazı

## "Azercell"dən "Nizami Gəncəvi İli"nə töhfə

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə ölkə başçısı tərəfindən elan edilən "Nizami Gəncəvi İli"nə töhfə olaraq "Azercell Telekom" da maraqlı bir layihə gerçəkləşdirib. Mobil operator Nizami yaradıcılığına həsr olunmuş xüsusi əlifba dizayn edib. Şirkətin məlumatında bildirilir ki, layihə dahi şairin zəngin irsinin öyrənilməsinə və təbliğinə xidmət edir.




Maraqlı üslubda hazırlanmış əlifbanın hərfləri Nizaminin "Xəmsə"sinə daxil olan poemaların qəhrəmanlarını, bu əsərlərdəki məşhur obrazları və şairin həyatında xüsusi rolu olmuş insanları əks etdirir. Məsələn, "A" hərfi şairin ilk həyat yoldaşı, qıpçaq gözəli Afaqı, "B" hərfi "Yeddi gözəl" poemasındakı hökmdar Bəhramı, "F" hərfi poemanın qəhrəmanlarından Fitnəni, "İ" hərfi qüdrətli sərkərdə İsgəndəri tərənnüm edir. Hərflərin hər biri adları çəkilən obrazlara uyğun miniatürlərlə bəzədilib.

Qeyd edək ki, Nizami irsini əks etdirən əlifbadan istifadə edərək xüsusi dizayn olunmuş bu hərflərdən müxtəlif sözlər ərsəyə gətirib sosial şəbəkələrdə paylaşmaq mümkündür. Bunun üçün https://www.nizami880.az/saytına daxil olmaq kifayətdir. Əlifbanın hərflərini, həmçinin "WhatsApp", "Telegram", "Facebook", "İnstagram" kimi sosial şəbəkələrin "gif" bölməsində "Nizami880" və ya "Azercell" açar sözlərinin köməyilə, "Telegram" tətbiqinin "stiker" bölməsində isə https://t.me/addstickers/azercell linki vasitəsilə əldə etmək olar.

"Azercell Telekom" MMC "Nizami ili"ndə müxtəlif təşəbbüslərlə çıxış edib. Şirkətin sosial şəbəkə hesablarında mütəmadi olaraq Nizami Gəncəvinin şeirlərindən parçalar və nəsihətamiz kəlamları paylaşılıb, şairin yaradıcılığını əks etdirən müsabiqələr keçirilib. Şirkət bu qəbildən təşəbbüsləri davam etdirəcək.

# Futbol uğurlarından şəhidlik zirvəsinə

Dahi şairimiz Məhəmməd Füzuli yazırdı: "...Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək". Qəhrəman Vətən övladlarımızdan Elyar Cəlal oğlu Mirzəyev də İkinci Qarabağ müharibəsinə şəhidlərimizin intiqamını almaq, torpaqlarımızı yağı düşməndən azad etmək üçün getmişdi. Qismətində bu arzusuna çatmaq da vardı, şəhidlik zirvəsinə ucalmaq da...



Elyar 6 sentyabr 1984-cü ildə Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olub. 1990-cı ildə Sərdar İmrəliyev adına Bahar qəsəbə tam orta məktəbinin 1-ci sinfinə gedir. Uşaqlıqdan futbola maraq göstərir, məktəbdə oxuduğu illərdə qəsəbənin eyniadlı futbol komandasında çıxış edir.

Orta məktəbi bitirdikdən sonra 2002-ci ildə həqiqi hərbi xidmətə çağırılır. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində hərbi xidmət keçir. Xidməti ərzində "Ədliyyə" futbol klubunda sevimli peşəsini də davam etdirir. Hərbi xidməti başa vurduqdan sonra 2004-cü ilin aprelindən paytaxtın "Bakılı" futbol klubunda çıxış edir. Ailə həyatı qurması ilə əlaqədar rayona qayıdan Elyar Mirzəyev Beyləqanın "Mil" komandasında oynayır. 2006-2007-ci illərdə "Mil" klubunun tərkibində Respublika Həvəskarlar Liqasında çempion olur, ölkə kubokunu qazanır. Bir müddət Bakıya gələrək "EKOL" MFK-da (mini futbol klubu) məşqlər keçir və sonra yenidən rayona qayıdır.

2016-cı ildə isə ailəsinə xəbər vermədən sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na verir. Kursu uğurla bitirən Elyar N saylı hərbi hissənin "Həmlə" taborunda pulemyotçu kimi xidmətə başlayır. O, qısa müddət ərzində futbolda qazandığı uğurları hərbçi kimi də təkrarlayır. Dəfələrlə fəxri fərman və təşəkkürnamələrə layiq görülür. 2019-cu ildə isə Gəncədə keçirilən Azərbaycan Silahlı Qüvvələrinin futbol üzrə ordu çempionatında İkinci Ordu Korpusunun komandası tərkibində çempion olur.

Elyar Mirzəyev 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində ön cəbhədə döyüşür. Onun döyüş yolu Füzuli istiqamətindən başlayır. "Həmlə" taborunun tərkibində müharibənin birinci günündən düşmənin illərlə möhkəmləndirdiyi istehkamı keçərək bir neçə kəndin işğaldan azad edilməsində iştirak edir. Füzuli, Cəbrayıl və Hadrut istiqamətində gedən döyüşlərdə pulemyotçu kimi işinin öhdəsindən layiqincə gəlir. Dəfələrlə atəş altında qalan yaralı yoldaşlarını xilas edir. Oktyabrın 14-də Hadrut istiqamətindəki Şaban dağının ətəyində gedən döyüşdə düşmənin snayper gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalır.

Atası Cəlal Mirzəyev deyir ki, Elyar çox vətənpərvər uşaq idi. Uşaqlıqdan hərbçi peşəsinə də marağı olub, amma evin tək uşağı olduğuna görə bu istəyini bizə deməkdən ehtiyat edərdi: "Ancaq istəyinə nail oldu. Vətən müharibəsinə gedəndə bizə təsəlli verirdi. Telefonla danışanda da deyərdi ki, narahat olmayın, hər şey yaxşı olacaq, biz qalib gələcəyik! Mən oğlumla fəxr edirəm. Bütün şəhidlərimizin ailəsinə səbir, qazilərimizə şəfa diləyirəm. Vətən sağ olsun, Allah bütün əsgərlərimizi qorusun".

Anası Həlimə İlyasova: "Ana kimi mənə oğlum haqqında danışmaq çox çətindir. Öz dəyərlisini, əziz balasını itirən şəhid anaları məni yaxşı başa düşər. Mən oğlumun şəkilləri ilə danışaraq təsəlli tapıram. Gözlərim hər yerdə onu axtarır. Mən oğlumla qürur duyduğum kimi, çox şükür, ondan yadigar qalan iki nəvəmlə də fəxr edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Şükür ki, əsgərlərimiz torpaqlarımızı yağı düşməndən azad etdilər, balamın qanını yerdə qoymadılar".

Qızı Xanım Mirzəzadə: "Fəxr edirəm ki, mənim belə atam olub. Hər yerdə ad qazanmışdı. İstər peşəsində, istər işdə, istərsə də Vətən müharibəsində... Mən də hər zaman atam kimi olmağa çalışacağam...".

Elyar Mirzəyev oktyabrın 16-da Bahar qəsəbəsində torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**Səbinə ƏLİBALAQIZI**

# Tanınmış aktrisa Tamilla Ağamirova vəfat edib

Azərbaycanın Əməkdar artisti, Rusiya Federasiyasının Xalq artisti Tamilla Ağamirova avqustun 31-də, 93 yaşında Moskvada vəfat edib. Bu barədə aktrisanın uzun illər çalışdığı "Romen" teatrından bildirilib.



Tamilla Mirsüca qızı Ağamirova 1928-ci il mayın 21-də Bakıda anadan olub. Bakı Teatr Məktəbini və Moskvada MXAT məktəb-studiyasını bitirib. 1952-ci ildən "Romen" Moskva Musiqili-Dram Teatrının aktrisası olub. Dünyada yeganə olan qaraçı teatrının səhnəsində bir çox parlaq obrazlar canlandırıb.



1957-ci ildə Qriqor Kozintsevun "Don Kixot" filmində rol aldıqdan sonra tanınmağa başlayır və bir sıra filmlərdə baş rola dəvət edilir. Aktrisa, həmçinin "Azərbaycanfilm"də çəkilən ekran əsərlərində – "Onun böyük ürəyi" (1958, rejissor Əjdər İbrahimov) filmində Səmayə, "Əsl dost"da (1959, Tofiq Tağızadə) Bilqeyis, "Koroğlu"da (1960, Hüseyn Seyidzadə) Alagöz, "Matteo Falkone" (1960, Tofiq Tağızadə) filmində Cüzeppa, "Zəncirlənmiş adam"da (1964, Kamil Rüstəmbəyov) Fatma, "Yenilməz batalyon"da (1965, Hüseyn Seyidzadə) musiqi müəllimi kimi yaddaqalan obrazlar yaradıb.

Tamilla Ağamirovanın həyat yoldaşı SSRİ Xalq artisti, Nikolay Sliçenko olub. O, "Romen" teatrının bədii rəhbəri, qaraçı mahnı və romansların məşhur ifaçısı olub, bu ilin iyulunda vəfat edib.

# Təsviri sənətimizdə iz qoymuş rəssam-pedaqoq

Azərbaycan təsviri sənətinin tanınmış nümayəndələrindən biri də Xalq rəssamı Yusif Hüseynovdur. Ömrünün 60 ilini yaradıcılığa həsr edən görkəmli sənətkar rəssamlığın müxtəlif janrlarında maraqlı əsərlərin müəllifidir.

Yusif İsmayıl oğlu Hüseynov 15 oktyabr 1928-ci ildə Bakı şəhərində anadan olub. Erkən çağlardan təsviri sənətə maraq göstərir. Orta məktəbi bitirdikdən sonra Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə qəbul olunur. 1949-cu ildə bu sənət məktəbini başa vurduqdan sonra Rusiyaya gedir. Vasili Surikov adına Moskva Rəssamlıq İnstitutunda Qrafika fakültəsində təhsilini davam etdirir. 1955-ci ildə ali təhsilini bitirib vətənə dönən gənc rəssam ana yurdun bir çox bölgələrində olur. Vətənin əsrarəngiz təbiəti onun zövqünü oxşayır. Müxtəlif janrlarda bir-birindən maraqlı əsərlər yaradır. O, get-gedə irihəcmli akvarel silsilələrinə meyil edir və dəyərli nümunələr ərsəyə gətirir. Rəssamın Azərbaycanın təbiətinə həsr etdiyi "Xınalıq" akvarellər silsiləsindən "Yağışdan sonra" lövhəsi bu baxımdan diqqət çəkir. Araşdırmalarda qeyd edilir ki, Yusif Hüseynovun çəkdiyi tablo, plakat və akvarel silsilələri müasir Azərbaycan təsviri sənətinin qiymətli nümunələri kimi dünyanın bir çox sərgi salonlarında, rəsm qalereyalarında və muzeylərində uğurla nümayiş olunub.

Ömrünün böyük bir hissəsini təsviri sənətin inkişafına və təbliğinə həsr edən rəssamın təkrarsız yaradıcılığında lakoniklik və monumentallıq, zərif kolorit və lirikaya olan meyil öz əksini tapıb. O, eyni zamanda kitab qrafikası sahəsində uğurlu fəaliyyət ortaya qoyub, diqqətəlayiq örnəklər yaradıb. Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin əsərlərinə çəkdiyi illüstrasiyalar ölkəmizdə kitab mədəniyyətinin inkişafına öz təsirini göstərib. Fırça ustası "Göyərçin" uşaq jurnalının baş rəssamı kimi çalışarkən poliqrafiya sənətinin inkişafına da dəyərli töhfələr verib.







Yaradıcı əməyi yüksək qiymətləndirilən sənətkar 1964-cü ildə "Əməkdar rəssam", 1979-cu ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülüb. Respublika rəssamları arasında böyük nüfuz və hörmət sahibi olan sənətkara milli təsviri sənətin inkişafına verdiyi töhfələrə, bu sahədə göstərdiyi xidmətlərə görə etimad göstərilir və 1977-ci ildə Azərbaycan Rəssamlar İttifaqının sədri seçilir. Elə həmin il o, SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin katibi təyin olunur.

Onu da deyək ki, Yusif Hüseynov həm də Azərbaycan rəssamlıq sənətinin gələcək nəsillərə çatdırılması sahəsində mühüm xidmətlər göstərib. Görkəmli sənətkar yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyət də göstərib, ömrünün 40 ilini ali məktəbdə təsviri sənətin tədrisinə həsr edib. Uzun müddət Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) Rəsm kafedrasının müdiri vəzifəsində çalışıb. 2000-ci ildən isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru kimi zəngin təcrübə və bacarığını gənc rəssamlar nəslinin inkişafına həsr edib. O, həmçinin ölkəmizin ictimai həyatında fəal iştirak edib, müxtəlif yaradıcı qurumlarda yüksək səviyyədə təmsil olunmaqla yanaşı, bir neçə çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilib.

Azərbaycan təsviri sənətinin inkişafına töhfələr verən Xalq rəssamı, Prezidentin fərdi təqaüdçüsü olmuş Yusif Hüseynov 1 sentyabr 2009-cu ildə, 81 yaşında vəfat edib.

**Savalan FƏRƏCOV**

# Keşikçidağda arxeoloji tədqiqatlara tələbələr də maraq göstərir

## Yay məktəbinin davamı olaraq qış məktəbi də təşkil ediləcək

Ölkəmiz tarixi abidələri, qədim insan məskənləri ilə dünyada tanınır. Yurdumuzun hər qarışında bir tarix yaşayır. Belə məkanlardan biri də Ağstafa rayon mərkəzindən 75 km məsafədə, Gürcüstan ilə sərhəddə yerləşən Keşikçidağ mağaralar kompleksidir. Azərbaycan Prezidentinin sərəncamı ilə mağaraların yerləşdiyi ərazi 2007-ci ildə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilmişdir. Qoruq yarandıqdan sonra tədqiqat işləri ilə yanaşı, burada quruculuq-abadlıq işləri də həyata keçirilmişdir.



Ötən il Prezident İlham Əliyevin göstərişi ilə qoruq istiqamətinə çəkilən 36 km-lik yolun inşası zamanı 7 və 14 kilometrlikdə çoxlu sayda kurqanların olduğu ehtimal edilmiş və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin müraciəti əsasında AMEA-nın alimləri ərazidə arxeoloji tədqiqat işləri aparmışdı. Arxeoloji qazıntılar nəticəsində bir neçə kurqan tipli qəbir açılmış və mühüm nəticələr əldə edilmişdi.

Dövlət Xidmətinin dəstəyi və təşkilatçılığı ilə 15 iyun – 30 iyul 2021-ci il tarixlərində Ağstafa rayonunda fəaliyyət göstərən gənc könüllülərin, tarix üzrə təhsil alan ali məktəb tələbələrinin iştirakı ilə "Keşikçidağda arxeoloji qazıntılar və yay məktəbi" adlı layihə həyata keçirilmişdir. Keşikçidağ kurqanlar vadisinin Sarıyoxuş dərəsindəki 2 ədəd daş örtüklü kurqanda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Pərviz Qasımovun rəhbərliyi altında tədqiqatlara başlanılmışdır.



Qeyd edək ki, Sarıyoxuş kurqanlarında tədqiqat zamanı şimal-qərb sektorunun daş təbəqəsi toxunulmaz qalmış, şimal-şərq sektorunun daş təbəqəsinin bir qatı, cənub-şərq və cənub-qərb sektorlarının daş örtükləri isə tamamilə götürülmüşdür. Bu cür metod həm kurqanın qədim yerli sakinlər tərəfindən inşa üsulunu üzə çıxarmağa, daş örtüyün parametrlərinin qeydiyyatını aparmağa, digər tərəfdən, dəfn kamerasının zədələnmədən aşkar edilməsinə şərait yaratmışdır. Abidədən şimal-şərq istiqamətdə təqribən 20 metr məsafədə 7 metr hündürlükdə yerləşmiş Sarıyoxuş dərəsindəki 2-ci kurqanın daş örtüyünün geodezik ölçüləri qeydə alınmışdır. Dəfn kamerası cənub-qərbdən şimal-şərqə doğru təqribən 4 metr enə, 6 metr uzunluğa malik böyük daş qutu qəbir formasındadır. Yaxınlıqdakı dağlardan gətirilmiş, ağır çəkili qaltan daşlarından hazırlanmış qəbir sakral xarakter daşıyıb və o dövr insanının dini dünyagörüşündən xəbər verir.

Bu kurqanın dəfn kamerasında 13 ədəd qara cilalı keramika məmulatı aşkarlanmışdır ki, bu saxsıların da dəfn ayini üçün nəzərdə tutulduğu ehtimal edilir. Dəfn kamerası yer səthindən 2,60 sm dərinlikdə yerləşmiş iki hissədən ibarətdir. Birinci hissəsi qurbangah kimi istifadə edilmişdir ki, burada qabların üzərində o dünya üçün "azuqəlik" kimi düşünülmüş və müxtəlif hissələrə bölünərək bişirilmiş müxtəlif heyvan qalıqları (qoyun, dağ keçisi, öküz, at, inək və s. olduğu ehtimal edilən) aşkarlanmışdır. Dəfn kamerasının 2-ci hissəsi şərq tərəfdədir və tayfa başçısının qəbri burada yerləşir. Qəbir 4 tərəfdən ağac kəsmələrlə haşiyələnmişdir. Tayfa başçısının skeleti isə taxt üzərindədir. Onun yanında oxlar yerləşdirilmişdir ki, oxların obsidian və çaxmaqdaşından ibarət ucluqları da aşkar edilmişdir. Ən maraqlı tapıntılardan biri də Son Tunc dövrü üçün xarakterik olan tuncdan qılıncdır. Bundan əlavə, tayfa başçısına məxsus, üzərində



xüsusi işarələr olan steatit daşından (sabun daşı da deyilir) hazırlanmış möhürdür və inanırıq ki, bu tapıntı Azərbaycan arxeologiyasına böyük zənginlik qatacaq.

Sarıyoxuş dərəsindəki 1 saylı kurqanda qəbilə başçısının yaxın silahdaşı olduğu və döyüşdə öldüyü ehtimal edilən insan skeleti aşkarlanmışdır. Bunu da onun başından daxil olub çənəsindən çıxan tuncdan ox ucluğu bir daha sübut edir. Kurqanda həmçinin Son Tunc dövrünə aid edilən tuncdan xəncərlər, dövrümüzə qədər yaxşı vəziyyətdə gəlib çatmış, Azərbaycan arxeologiyasında nadir tapıntılardan hesab edilən ağzı qapaqlı qulpsuz qab və qabın ağız hissəsini örtmüş parça qalıqları aşkar edilmişdir. Dəfn inventarının xüsusiyyətlərinə görə, kurqan dəfn kamerasındakı maddi-mədəniyyət nümunələri e.ə. I minilliyin əvvəllərinə və ya başqa sözlə desək, 3 min il əvvələ aiddir.

Bu abidələrin Son Tunc-Erkən Dəmir dövründə Azərbaycanda və ümumilikdə Cənubi Qafqazda geniş yayılmış Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin son mərhələsinə aid olduğu ehtimal edilir. Bu dövrdə Ceyrançöl torpaqlarının otlaqlar üçün yararlılığı, şirin su mənbələrinə yaxınlığı, təbiətinin zənginliyi və xüsusilə də ticarət karvanlarının bu ərazidən keçməsi qədim tayfalar üçün xüsusi əhəmiyyət kəsb etmişdir.

Qoruqda həyata keçirilən digər işlər kimi, bu layihə də uğurla yekunlaşdı və iştirakçıların böyük marağına səbəb oldu. Bu layihənin davamı olaraq "Keşikçidağda qış məktəbi" adlı yeni layihənin həyata keçirilməsi planlaşdırılır.

**Musa MURSAQULİYEV**
**"Keşikçidağ" qoruğunun direktoru**

# "Vaqif" operası musiqi platformalarında yayılacaq

Görkəmli bəstəkar Ramiz Mustafayevin "Vaqif" operası tamaşasının videoyazısı elektron formata köçürülərək flaşkartı hazırlanıb. Opera tamaşası həmçinin internetdəki musiqi platformalarında yayılacaq.

Operada baş rolu ifa edən Əməkdar artist Ramil Qasımovun sözlərinə görə, bu il Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi hər bir incəsənət xadimində böyük ruh yüksəkliyi yaradıb. Bu günlərdə ölkə rəhbərliyinin iştirakı ilə Şuşada böyük şair Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurmadan sonra açılışının keçirilməsi bütövlükdə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə verilən dəyərdir.

Pandemiya şəraiti nəzərə alınaraq Azərbaycan Dövlət Akademik Opera və




Balet Teatrı truppasının iştirakı ilə dirijor Əyyub Quliyevin rəhbərliyi altında ərsəyə gəlmiş "Vaqif" operasının tamaşası müasir texniki avadanlıqla sənətsevərlərə təqdim edilir. Ramil Qasımov həmçinin qeyd edib ki, "Vaqif" operasının bütün musiqi platformalarında yayılması ümumilikdə klassik musiqimizin dünyada təbliğinə töhfə olacaq. Opera tamaşasının flaşkart şəklində təqdimat mərasiminin pandemiyadan sonra keçirilməsi nəzərdə tutulur.

## Nizami sözündən incilər

# Papağı dik saxla, baş getsə belə...

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Çox iti zehinlər yatan oldular.*
*Axırda saxsı qab satan oldular.*

**("Yeddi gözəl")**



*Sinənə taxmaq üçün gövhər gətirsən ələ,*
*Ondan da yaxşısını çalış gətir əmələ.*

**("Sirlər xəzinəsi")**

*Dəvə uzaq düşsə, ayrılsa qatar,*
*Bir siçan da olar ona cilovdar.*

**("Xosrov və Şirin")**

*Qanını çörəyinə yavanlıq elə,*
*Papağı dik saxla, baş getsə belə.*

**("Leyli və Məcnun")**

*Xəzinə kəşf etmək istəsən əgər,*
*Hər bir çətinliyə tab et, sinə gər!*

**("İsgəndərnamə" – "İqbalnamə")**

# Yaşarı yaşadan

Nədir? Doğurdan da, görəsən, nədir illərdir aramızda olmayan, cismani yoxluğu ilə evlərimizdəki "dördbucaq"da çoxdandı görünməyən adamı içimizdə, ürəyimizdə yaşadan? Təbii ki, sizin də, mənim də xeyli arqumentimiz, peşəkar-həvəskar rəy-cavabımız olacaq. Amma hamı bu və başqa formada bir fikrə eyham vuracaq: Yaşar səhnədə də, ekranda da, həyatda da Yaşar idi də, sadəcə Yaşar...

Tamada Surxayzadə, Gülnarın Elçini, Gülərin Həsənağası, "Ac həriflər"in Həsən dayısı, "Bəyin oğurlanması"nın İsrafili... xülasə, onun bütün qəhrəmanları cəm olub yaradıcılarının, onlara səhnə, ekran həyatı verən sənətkarın – Xalq artisti Yaşar Nurinin 70 yaşını qeyd edirlər. Hərəsinin də ağzından bir avaz çıxır. Qulaq verək, gülüşümüz təzələnsin, sonra keçək söhbətə...

### "Sən söhbətini elə"

Sizi bilmirəm, mən bu və qeyd etmədiyim neçə-neçə sözünü, replikasını, xalq arasında dillər əzbəri olan obrazlı ifadələrini eşidəndə uğunub gedir, onun başdan-ayağa artist yaradılışına heyran qalıram. Adam xalqın dilində, dialektində elə ustalıqla manevrlər edib, elə keçidlər yaradırdı ki, tərəf-müqabili də istər-istəməz ona təslim olurdu. Özlüyümdə bunun sadə səbəbini də tapmışam: Yaşar Nuri qarşısındakı tamaşaçının görmək istədiyi tərzdə, amma özünü gördüyü, görünmək istədiyi kimi olurdu. Təsadüfi deyil ki, səhnəyə gəldiyi ilk vaxtlardan nə kinoda, nə teatrda, nə də adi səhnəciklərdə istəmədiyi heç bir rolu oynamayıb, xoşlamadığı, yaşarlaşdıra bilmədiyi heç bir obrazı canlandırmayıb. Məhzi (Yaşar Nurinin qəhrəmanın ifadə və intonasiyasında) ona görə az qala yaratdığı bütün personajlarını xalq əzbər tanıyır.

Milyonlarla insan onun replikalarını yada salır, bu səhnə, sənət, kino nümunələrini öz söz, göz yaddaşında yaşadır. Deməli, Yaşar Nuri başda olmaqla o nümunələrdə adı keçən yüzlərlə insan da yaşayır.





Yaşar Nuri o müqtədir aktyorlardan idi ki, ən xırda, ən ani rolunda, ifadəsində də böyük sənətkarlığını, tamaşaçını ovsunlamaq gücünü ortaya qoya bilirdi. Bu qədər sehri, gücü nədən, haradan almışdı? Bir aktyor tamaşaçısını, onunla üzüzə dayanan izləyicisini, fərq etməz, efir, kinokamera, səhnə – necə belə asanlıqla, müqavimətsiz ram edə bilirdi?...

Aktyor kimi janr və amplua çərçivəsini darmadağın etmişdi, "rejissor aktyoru", "obrazlar ustası", "müsbət qəhrəman", "mənfi rolları da sevdirmək bacarığına sahib" kimi heç bir aktyor analizinə sığmırdı. Heç bir təhlilində onu qütbləşdirə, ümumi ifadələrlə analiz edə bilmirsən. Bunu isə hər aktyor bacarmır.

O, səhnə ilə həyat arasındakı fərqi, o səddi çoxdan keçmişdi. Səmimi və çox zəhmətkeş, məsuliyyətli və ən əsası, hər yerdə arzu olunan, hər zaman izləyicinin gözünün axtardığı aktyor idi. Bunu isə ən yaxşı özü bilirdi və buna görə də sənətin şöhrətindən, tamaşaçının aşıb-daşan sevgisindən xumarlanmır, uğurunda ilişib qalmırdı, daim zəhməti, istedadı sayəsində tamaşaçı sevgisinin, ona olan məhəbbətin əbəs olmadığını isbat edirdi. Özünə də, tamaşaçısına da, tərəf-müqabillərinə də. Odur ki, kinoda da, teatrda da, televiziyada da onunla işləmək, onunla səhnəni bölüşmək aktyorların xoşuna gəlir, rejissorların işinə yarayırdı. Kim belə ənginlikdən bəhrələnməz ki?...

Onun iştirakı ilə istənilən tamaşa, film, televiziya tamaşası hər kəsi cəlb edə, fərqli yaş və zövqlərdə insanları birləşdirə bilirdi. "Televiziyada, kinoda çəkiləndə yoruluram. Amma səhnədə heç vaxt yorulmuram. Daha doğrusu, bu yorğunluqdan ləzzət alıram" deyən aktyor dönə-dönə teatra olan sevgisini bəyan edirdi.

### "Əşi, bu yazanların əlindən göz açmaq olur ki..."

Teatr aktyoru Məmmədsadıq Nuriyevin ailəsində dünyaya göz açan (3 sentyabr 1951-ci il) Yaşar 10 yaşından Azərbaycan Televiziyasında verilişlərdə çıxış edirdi. Səhnəyə ilk dəfə 11 yaşında Dövlət Musiqili Komediya Teatrının "Toy kimindir?" tamaşasında Tapdıq rolunda çıxanda da tamaşaçıya, xüsusən azyaşlı kütləyə tanış idi.

Teatra hədsiz həvəsi nəhayət, onu Mədəniyyət və İncəsənət Universitetinə gətirir, Dram və kino aktyorluğu fakültəsinə daxil olur. Tələbəlik çağlarından hamı ondan çox şey gözləyirdi, hamı onu "hazır aktyor" sayırdı.

Fitri istedadı ilə ilk vaxtdan diqqəti cəlb etməyi bacaran aktyoru ilk olaraq novator rejissor Tofiq Kazımov kəşf edir. Onu Akademik Milli Dram Teatrına dəvət edir və Aleksandr Vampilovun "Övlad" tamaşasında Silva teatrda yaratdığı ilk obraz olur.

Beləcə, müxtəlif illərdə teatr səhnəsində "Hacı Qara" (Bədəl), "Bağlardan gələn səs" (Pərviz), "Yağışdan sonra" (Cığatay), "Bəşərin komediyası və yaxud Don Juan" (Sqanarel), "Şəhərin yay günləri" (Namiq), "Dəli yığıncağı" (Sərsəm Salman), "Müsyö Jordan və dərviş Məstəli şah" (Qulaməli), "Sevil" (Əbdüləli bəy), "Sizi deyib gəlmişəm…" (Molla Nəsrəddin) kimi səhnə nümunələrində yaddaqalan rollar ifa edir.

Yaşar Nuri rol müqayisəsini, obrazın əsərdəki yerini, səhnədəki mizan önəmini nəzərə almadan qəhrəmanının daxilinə varır və onu əsas plana gətirə bilirdi. Bunu isə sadə, lakin bir o qədər də mürəkkəb görünəcək detallarla üzvi surətdə bağlayaraq edirdi. Məsələn, yeri gələndə qəliz rəqs nömrələrini nümayiş etdirər, bəzən muğam, mahnı ifa edər və beləcə, özünü tamaşaçı üçün maraqlı personaja çevirərdi.





### "Bütün rayon bilir ki, biz dərdimizdən içirik..."

Bu gün onun – bu dünyadan əbədi yaşamaq haqqı ilə gəlib keçmiş sənətkarın ad günü, 70 illik yubileyidir. Sağlığında sağlığına neçə dəfələrlə badələr qaldırılıb, sağlıqlar deyilib və çox yəqin ki, hamısında da eyni məhəbbət və təbəssümlə xatırlanıb.

Tez-tez "Məndən nə şah olar, nə də ki vəzir. Gəlsəm də, şah özü peşiman olar" deyirdi səhnənin şahı, peşəsinin sultanı, mübaliğəsiz ağası Yaşar Nuri.

Bunun da səbəbi sadə idi. O, milli koloritini, özünəxas keyfiyyətləri həyatdan səhnəyə, ekrana, kinokameraya daşıya bilmişdi. O, məharətlə yaratdığı lirik, dramatik, komik, psixoloji rolların hamısında həm də özü idi...

### "Fatı, qalx, "sroçnu" mənim məclisimi tərk elə"

Yaşar Nuri improvizə ustası idi. Teatr mühitində yetişməsi, aktyor ailəsində dünyaya gəlməsi, uşaqlıqdan efir-ekran estetikasında formalaşması, təbii ki, bu işdə öz sözünü deyirdi. O, klassik teatrın, ənənəvi quruluş və oyun formasının içinə, yaxşı mənada, bir civə kimi düşdü, sunami effekti yaratdı və beləcə özünəxas oyun üslubu gətirdi və rejissorları da bu formada tətbiqə sövq etdi. Özü də hər hansı diktə, tələb ilə yox, praktiki göstərməklə. Yaşar Nuri rejissorların traktovkasına əl gəzdirməyə ixtiyarı çatan az sayda aktyorlardan idi. Bu isə heç bir rejissorun xətrinə dəymirdi. Çünki onlar Yaşarın səhnədə nə yaradacağını, tamaşaçısına nə yaşadacağını yaxşı bilirdilər.

Yalnız bundan sonra tamaşaçı onun rolu ilə özü arasındakı şəffaf pərdəni görə bilərdi.

"Mən istər teatrda, istər televiziyada, istərsə də kinoda, demək olar ki, bütün rejissorlarla işləmişəm" deyən aktyora yorulmaq ifadəsi yad idi.

O kinoda da, teletamaşalarda da teatrdan irəli gələn tamaşaçı ilə maneəsiz, canlı ünsiyyət bacarığını işə salırdı. Buna görə də tamaşaçı onun qəhrəmanları ilə asan dil tapırdı, rahat şüuraltı dialoqa girə bilirdi.

Azərbaycan televiziyasında mərhum rejissor Tariyel Vəliyevin ötən əsrin 80-ci illərində lentə aldığı "Səni axtarıram", "Bağışla", "Səndən xəbərsiz" kimi televiziya tamaşaları böyük sənətkarı tamaşaçılara bir daha sevdirdi və tam başqa bir prizmadan – lirik-psixoloji aktyor qismində təqdim edə bildi. Bənzərsiz aktyorun çəkildiyi və televiziyanın "qızıl fond"unda qorunan "Yollar görüşəndə", "Ömrün yolları", "Qatarda", "Evləri köndələn yar", "Ordan-burdan", "Topal Teymur" teletamaşalarının hər biri bizim qarşımıza tam fərqli bir Yaşar çıxarırdı.

### Yaşadı, yaşayır...

Səhnə insanları iki ömür yaşayır və səhnə üçün yaşanan ömür daha mənalı və əbədi olur. Həyatdan köçsələr də, yaddaşlarda əbədi iz qoyurlar.

Yaşar Nuri də neçə illərdir ki, aramızda yoxdur, amma bu fiziki yoxluğu onun yaddaşlardakı yeri daim saxlayır, onun ülvi, bənzərsiz sənəti Yaşarı yaşadır. Bu mənada onun milli kinematoqrafiyamızın inciləri sayılacaq nümunələrdə oynadığı rollar, sözsüz, bir kino incisi, ekran nəhəngidir. Onun qəhrəmanları – İsrafil ("Bəyin oğurlanması"), Mahmud ("Qətl günü"), Mirzəbala ("Mənim ağ şəhərim"), Xəlil ("Yuxu"), Maşallah ("Yaramaz") indi də aramızdadır, bizdən biridir.

Müsahibələrində "Deyə bilmərəm ki, sənətdə arzuladığım bütün obrazlara qovuşmuşam. Teatr və kino çox geniş sənət növüdür və biz aktyorlar bu dəryada bir damlayıq" deyirdi. Fəxri adları və mükafatlarını da daim söhbətinin ya sonuna şaxlar, ya da ümumən bu barədə danışmazdı, xalqın sevgisini, tamaşaçının alqışını ən böyük qazancı sayardı. "Mənim yaxama taxacağım və qürurlanacağım mükafatım tamaşaçılarımın gülüşü və alqışıdır" deyir və bundan xeyli xoşhal olurdu.

Tamaşaçıları Yaşarın fiziki yoxluğunu, onu itirmək qorxusunu bir də, özü də sonuncu dəfə 22 noyabr 2012-ci ildə daddı. 61 yaşında onun "Mən heç vaxt ölməyəcəyəm!" monoloqunda sonuncu benefisini izləməli, alqışlamalı oldu. Həm də həmişəyaşarlığına həmişəlik inana-inana...

**Həmidə NİZAMİQIZI**

## Xatirə təqvimi — 4–7 sentyabr

### Azərbaycan

**4 sentyabr 2003** – Xalq yazıçısı, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Əzizə Məmməd qızı Cəfərzadə (29.12.1921 – 2003) vəfat edib. S.Ə.Şirvani, A.Səhhət, Xətai və başqa görkəmli şəxsiyyətlər haqqında tarixi romanların müəllifidir.

**5 sentyabr 1892** – Tanınmış tarzən, pedaqoq, Xalq artisti Əhmədxan Məmmədrza oğlu Bakıxanov (1892 – 26.3.1973) anadan olub. Azərbaycan Televiziyası və Radiosu Xalq çalğı alətləri ansamblının təşkilatçısı və rəhbəri (hazırda kollektiv onun adını daşıyır) olub.

**5 sentyabr 1935** – Xalq artisti, məşhur aktyor Siyavuş Məmmədağa oğlu Aslan (1935 – 27.6.2013) anadan olub. Musiqili Komediya, Akademik Dram teatrlarında çalışıb. Teatrla yanaşı, televiziya tamaşalarında ("Evləri köndələn yar", "Yaşıl eynəkli adam"), kinoda ("Əhməd haradadır?", "Romeo mənim qonşumdur", "Yol əhvalatı", "O dünyadan salam" və s.) yaddaqalan obrazlar yaradıb.

**5 sentyabr 1942** – Yazıçı-dramaturq, şair Ramiq Muxtar (Ramiq Muxtar oğlu Nağıyev; 1942 – 21.4.2021) Naxçıvan şəhərində anadan olub.

**5 sentyabr 2007** – Aktyor Şahin Cəbrayılov (29.10.1949 – 2007) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb. Televiziya tamaşalarında, filmlərdə çəkilib.

**6 sentyabr 1945** – Tanınmış xanəndə Məcid Behbudalı oğlu Behbudov (18.4.1873 – 1945) vəfat edib. Şuşada dünyaya gələn sənətkar Bakıda, Gəncədə opera tamaşalarında çıxış edib. 30-cu illərdə İrəvanda, sonra Qazaxda yaşayıb. Görkəmli müğənni Rəşid Behbudovun atasıdır.

**6 sentyabr 2015** – Xalq artisti İlham Təvəkkül oğlu Əsgərov (16.7.1958 – 2015) vəfat edib. Akademik Milli Dram Teatrında, televiziya tamaşalarında, filmlərdə ("Doğma sahillər", "Biz qayıdacağıq") maraqlı rollar oynayıb. Filmlərin səsləndirilməsində iştirak edib.

**7 sentyabr 1914** – Teatrşünas və ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Cəfər Haşım oğlu Cəfərov (1914 – 19.9.1973) Bakıda anadan olub. Yazıçılar İttifaqının məsul katibi, mədəniyyət nazirinin müavini işləyib. "Rejissor sənəti", "Azərbaycan Dram Teatrı" və s. kitabların müəllifidir.

**7 sentyabr 1939** – Şair, tərcüməçi, ssenarist Mənsur Fəxri (Mənsur Fəxri oğlu Vəkilov; 1939-2009) Bakıda anadan olub. "Literaturnı Azerbaydjan" jurnalının baş redaktoru işləyib. Rus dilində yazıb, Azərbaycan şairlərinin əsərlərini ruscaya tərcümə edib.

**7 sentyabr 1989** – Şair Hafiz Həbib oğlu Baxış (15.10.1932 – 1989) vəfat edib. Sözlərinə populyar mahnılar bəstələnib.

### Dünya

**4 sentyabr 1904** – Fransız kinorejissoru Kristian Jak (Christian-Jaque (Maudet); 1904-1994) anadan olub. Filmləri: "Fanfan-zanbaq" (1952, Kann festivalının qalibi), "Qara zanbaq", "Yaşıl saqqal", "Babetta müharibəyə gedir" və s.

**4 sentyabr 1952** – Hind aktyoru Rişi Kapur (1952 – 30.4.2020) anadan olub. Filmləri: "Bobbi", "Qisasçı", "Belə yalançı" və s.

**5 sentyabr 1568** – İtalyan filosofu Tommazo Kampanella (Tommaso Campanella; 1568-1639) anadan olub. Utopik sosializm mövzusunda "Günəş şəhəri" əsərinin müəllifidir.

**5 sentyabr 1817** – Rus yazıçısı və dramaturqu Aleksey Konstantinoviç Tolstoy (1817-1875) anadan olub. Əsərləri: "Gümüş knyaz" romanı, "İvan Qroznının ölümü", "Çar Fyodor İvanoviç", "Çar Boris" dramatik trilogiyası və s.

**5 sentyabr 1912** – Amerika bəstəkarı, avanqard musiqi əsərlərinin müəllifi Con Keyc (John Milton Cage; 1912-1992) anadan olub.

**5 sentyabr 1946** – Əslən iranlı olan Britaniya rok müğənnisi, "Queen" qrupunun lideri Freddi Merkuri (Freddie Mercury – əsl adı Fərrux Balsara; 1946-1991) anadan olub.

**6 sentyabr 1928** – Rus bəstəkarı və dirijoru, SSRİ Xalq artisti Yevgeni Svetlanov (1928-2002) anadan olub.

**6 sentyabr 2007** – Dünya şöhrətli italyan opera müğənnisi Luçano Pavarotti (Luciano Pavarotti; 12.10.1935 – 2007) vəfat edib.

**7 sentyabr 1726** – Fransız bəstəkarı Fransua Andre Filidor (1726-1795) anadan olub. Komik operaları ilə tanınıb, 30-dan çox opera yazıb: "Pinəçi Blez", "Bağban və onun ağası" və s.

**7 sentyabr 1870** – Rus yazıçısı Aleksandr İvanoviç Kuprin (1870–1938) anadan olub. "Molox", "Döyüş", "Zamanın təkəri", "Janeta", "Qranat qolbağı" və s. roman-povestlərin müəllifidir.

**7 sentyabr 1909** – Yunan mənşəli Amerika rejissoru Elia Kazan (Elia Kasancoğlu; 1909–2003) İstanbulda anadan olub. İki dəfə "Oskar" laureatıdır: "Centlmen razılaşması" (1947) və "Limanda" (1954).

**Hazırladı: Vüqar ORXAN**

# Tağıyevin xatirə günündə Milli Azərbaycan Tarixi Muzeyində "açıq qapı" aksiyası



Sentyabrın 1-də böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin (1838–1924) vəfatının 97-ci ildönümü idi. Tağıyev Azərbaycan xalqının maariflənməsi, mədəni inkişafı üçün gördüyü nəcib işlərlə tariximizdə silinməz iz qoyub. Bakıda ilk teatr binası, müsəlman qızlar üçün ilk məktəb və s. onun adı ilə bağlıdır. Dövrün tanınmış ziyalıları onun köməyi ilə Rusiyada, Avropada təhsil alıblar.

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində məşhur neft sənayeçisi, ictimai xadim, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə məxsus əşyalar, sənədlər, fotoşəkillər qorunur, onun həyat və fəaliyyətinə dair əsərlər çap olunur.

Muzeydə hər il ənənəvi olaraq sentyabrın 1-də Hacı Zeynalabdin Tağıyevin xatirəsinə ehtiram olaraq "açıq qapı" günü keçirilir və ziyarətçilər üçün giriş ödənişsiz olur. Bu il "açıq qapı" günü COVİD-19 pandemiyası ilə əlaqədar tətbiq edilən xüsusi karantin rejiminin tələblərinə uyğun təşkil olunub.

Vaxtilə Hacı Zeynalabdin Tağıyevin yaşadığı sarayda yerləşən Milli Azərbaycan Tarixi Muzeyində 2007-ci ildən etibarən böyük mesenatın xatirə muzeyi fəaliyyət göstərir. Muzey Tağıyev irsini araşdıran və onu təbliğ edən əsas elmi və mədəni mərkəzdir.

# Rumıniyada türkdilli ölkələrin müstəqilliyinə həsr olunan konsert və fotosərgi




Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın dövlət müstəqilliyinin otuzuncu ildönümü münasibətilə silsilə tədbirləri davam etdirir.

Avqustun üçüncü həftəsində Macarıstanda təşkil edilən tədbirlərin ardından Rumıniyanın Köstencə və Craiova şəhərlərində də "Türk dünyasından melodiyalar" adlı konsertlər və Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqilliyinin 30 illiyinə həsr olunmuş fotosərgi keçirilib. Konsertlərdə TÜRKSOY-un dəvət etdiyi türkdilli ölkələrin sənətçiləri çıxış ediblər.

Türk dünyası sənətçiləri ilk olaraq Rumıniyanın Doburca bölgəsinin türk əhalinin kompakt yaşadığı Mecidiye qəsəbəsində "Qazaxıstan" parkında ünlü qazax bəstəkarı Kurmanqazinin abidəsini ziyarət ediblər. Abidə önündə bəstəkarın musiqilərindən nümunələr ifa olunub.

Sonra Köstencə şəhərinin Arxeoloji parkında konsert proqramı keçirilib və fotosərgi nümayiş olunub.



Türk respublikalarının müstəqilliyinin otuzuncu ildönümü münasibətilə tədbirlər avqustun 27-də Rumıniyanın ikinci böyük şəhəri Craiovada konsertlə yekunlaşıb.

Hər iki şəhərdə təşkil olunmuş konsert proqramlarında Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Türkmənistandan gələn musiqiçilərin rəngarəng ifaları dinlənilib. Azərbaycanlı tarzən Sahib Paşazadənin ifası da musiqisevərlərin hərarətli alqışları ilə qarşılanıb.

Konsert proqramlarında türkdilli ölkələri Rumıniyada təmsil edən diplomatlar, yerli hakimiyyət orqanlarının təmsilçiləri və rumıniyalı millət vəkilləri tamaşaçılar arasında olublar.

# "Mədəniyyət və mərifət"də "Qızıl körpü – Azərbaycan"




Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə "Mədəniyyət və mərifət" televiziya kanalında "Oltin koprik Ozarbayjon" ("Qızıl körpü – Azərbaycan") adlı veriliş yayımlanıb.

Verilişdə dili, mədəniyyəti, adət və ənənələri bir-birinə yaxın olan xalqlarımızın tarixi dostluğu, Azərbaycan və Özbəkistanın ortaq dəyərləri geniş işıqlandırılıb.

Proqramda iki ölkənin alimləri tariximizə, ədəbiyyatımıza nəzər salıb, Nizami Gəncəvi, Əlişir Nəvai, Məhəmməd Füzuli, Babarəhim Məşrəf, Hüseyn Cavid, Qafur Qulam kimi şəxsiyyətlərdən söhbət açıblar.

Daşkənddəki Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyatı Universitetinin dosenti, Məhəmməd Füzuli adına Mərkəzin direktoru Gülbahar Aşurova 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunması, Özbəkistanda Əlişir Nəvainin 580 illik yubileyinin geniş qeyd olunması haqqında məlumat verib.

AMM-in direktoru Samir Abbasov xalqlarımızın dostluğu və dövlətlərimiz arasında əməkdaşlıqdan danışıb. O cümlədən sovet dövründə mədəni-ədəbi əlaqələr, qarşılıqlı ədəbiyyat-sənət dekadaları, mədəniyyət günləri, müstəqillik illərində bu istiqamətdə görülən işlərdən bəhs edilib.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun professoru Almaz Ülvi Binnətova Özbəkistanla ədəbi əlaqələr haqqında söhbət açıb.

Proqramda ÖDƏU-da yaradılan Məhəmməd Füzuli adına Azərbaycan Mərkəzinin fəaliyyəti də işıqlandırılıb.

## Özbəkistanın müstəqilliyi 30 yaşında

Sentyabrın 1-də Özbəkistanın müstəqilliyinin 30-cu ildönümü tamam olub. Bu münasibətlə Daşkənddə təzəcə istifadəyə verilən "Yeni Özbəkistan" parkında təntənəli bayram tədbiri keçirilib.



Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, diasporumuzun tanınmış üzvləri də mərasimə qatılıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev müstəqillik bayramı münasibətilə özbək xalqını, bu ölkədə yaşayan digər xalqların nümayəndələrini təbrik edib, onlara uğurlar arzulayıb. Dövlət başçısı deyib ki, 30 il bundan əvvəl Özbəkistanın müstəqilliyini elan etməsi böyük tarixi hadisədir.

Prezident müstəqillik illərində Özbəkistanın böyük uğurlarından danışıb. Dövlət başçısı deyib ki, 2017-2020-ci illərdə ölkədə iqtisadi artım 18.3 faiz olub. 2016-cı ildə xarici ticarət dövriyyəsi 16 milyard dollar olubsa, ötən il bu rəqəm 36 milyard dollar təşkil edib.

Tədbir Özbəkistan incəsənət ustalarının bayram konserti ilə başa çatıb.

# Türk Dünyası Sənədli Film Festivalında "Xocalıya ədalət!" nümayiş olunacaq

Türkiyədə keçirilən VI Türk Dünyası Sənədli Film Festivalının əsas mərhələsi başlanıb. Festival Türk Dünyası Jurnalistlər Federasiyası və Türk Dünyası Mədəniyyət, İncəsənət və Kinematoqrafiya Vəqfinin təşəbbüsü, bələdiyyə və dövlət qurumlarının, eləcə də türkdilli ölkələrdən müxtəlif təşkilatların da dəstəyi ilə reallaşır. Qeyd edək ki, Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti festivalı dəstəkləyən təşkilatlar sırasındadır.

Festivalın müsabiqə proqramına qəbul 23 apreldə elan edilmişdi. 30 avqustda filmlərin qəbulu başa çatıb. Sentyabrın sonunadək filmlər münsiflər tərəfindən dəyərləndiriləcək. Festivalın qala-gecəsi və mükafatlandırma mərasimi 2 oktyabr tarixinə nəzərdə tutulub.




Türk Dünyası Sənədli Film Festivalı Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Şimali Kipr Türk Respublikası, Macarıstan və Makedoniya, eləcə də Rusiya Federasiyasının Tatarıstan, Çuvaşıstan, Başqırdıstan, Dağıstan, Tuva, Saxa Yakutiya və Xakasiya respublikalarının peşəkar və həvəskar (tələbə) kinematoqrafçılarının iştirakı ilə keçirilir.

"Türk mədəniyyəti və türkün dünyaya baxışı" başlığı ilə gerçəkləşən builki festivalda Azərbaycanı İstanbul Universiteti İctimaiyyətlə əlaqələr fakültəsinin radio, televiziya və kino bölümünün aspirantı Səidə Ömərin "Xocalıya ədalət!" sənədli filmi təmsil edəcək.

Festivala tələbə nominasiyası üzrə təqdim olunan ekran əsərində "Şuşa" filmindən, Milli Qəhrəman, telejurnalist Çingiz Mustafayevin, operator Seyidağa Mövsümlünün Xocalı soyqırımı dəhşətlərini əks etdirən videomateriallarından istifadə olunub.

Filmin ssenari müəllifi və rejissoru olan Səidə Ömər həmçinin bədiiləşdirilmiş epizodlarda da çəkilib. Operator və montaj işini Osman Yılmaz həyata keçirib.

**Mehparə SULTANOVA**
**Ankara**

# İstanbulda Diaspor Beynəlxalq Qısa Filmlər Festivalı başa çatıb

## Şuşaya qayıdışdan bəhs edən film nümayiş olunub

İstanbul şəhərində Xaricdə Yaşayan Türklər və Əqrəba Toplumlar Başqanlığı (YTB), TRT, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kinematoqrafiya Baş İdarəsi, Anadolu Agentliyi və Boğaziçi Mədəniyyət və Sənət Vəqfinin təşkilatçılığı ilə keçirilən Diaspor Beynəlxalq Qısa Filmlər Festivalı başa çatıb. Festivalın seçim mərhələsindən sonra müxtəlif ölkələrdən 24 filmin əsas proqrama daxil edildiyi festival 27-29 avqust tarixində "Atlas" kinoteatrında gerçəkləşib.




Türkdilli filmlər kateqoriyasında azərbaycanlı rejissor Nazim Şərbətovun "28" filmi də nümayiş olunub. Film Hollandiyada yaşayan jurnalist Xatirə Sərdarqızının 28 il sonra doğma şəhəri Şuşaya qayıdışının hekayəsini təqdim edir. Film Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə hazırlanıb.

Nümayişdən sonra rejissor Nazim Şərbətov film və Qarabağ haqqında sualları cavablandırıb. Filmin qəhrəmanının Birinci Qarabağ müharibəsində yurd-yuvasından köçmək məcburiyyətində qaldığını qeyd edən rejissor qəhrəmanın uşaq vaxtı psixoloji sarsıntılar yaşadığını söyləyib: "Bu hekayədə müharibənin insanlar və uşaqların üzərində nə kimi travmalara səbəb olduğunu göstərmək istədik".

Festival çərçivəsində müxtəlif tədbirlər və görüşlər təşkil edilib. Kino tənqidçiləri və rejissorlar iştirakçılarla görüşərək fikir mübadiləsi aparıb.

# Distant fəaliyyət azalır

## "Zoom" şirkətinin səhmləri ucuzlaşıb




Amerikanın onlayn videokonfrans şirkəti olan "Zoom"un səhmləri 11 faizdən çox ucuzlaşıb.

Tələbatın daha sürətlə azalmasına və insanların yenidən ofislərə qayıtmasına görə şirkətin səhmləri dəyərini itirməyə başlayıb.

Qeyd edək ki, dünya iqtisadiyyatına misli görünməmiş zərər vuran koronavirus pandemiyasından qazananlar arasında yeni informasiya texnologiyaları şirkətləri xüsusilə seçilib. Bunlar əsasən yeni informasiya texnologiyaları sahəsini əhatə edir. "Zoom" və videokonfrans xidmətləri təklif edən digər şirkətlər – "Cisco", "Microsoft's Teams" və "Salesforce's Slack" karantin müddətində milyonlarla yeni istifadəçi toplayıb.

Məsələn, pandemiyanın birinci ayında "Zoom Video Communications" şirkətinin müvafiq proqramının 2020-ci ilin mart ayında dünya üzrə sutkalıq auditoriyası 2019-cu ilin dekabr ayı ilə müqayisədə 20 dəfə artaraq 200 milyon nəfərə çatmışdı.

# Estoniya Milli Muzeyinin direktoru dövlət başçısı seçilib

Estoniya Parlamenti – Riigikogu ikinci tur səsvermədə növbəti beş il müddətinə dövlət başçısını seçib.



Estoniya Milli Muzeyinin direktoru Alar Karis səsvermədə iştirak edən 80 deputatdan 72-sinin səsini qazanaraq Estoniya Prezidenti seçilib.

Karis seçkilərin ikinci turunda yeganə namizəd olub və seçilmək üçün 68 səs lazım idi. Birinci turda o, 63 deputatın dəstəyini almışdı.

Alar Karis 1958-ci ildə Tartu şəhərində doğulub. 1981-ci ildə Estoniya Kənd Təsərrüfatı Akademiyasını bitirib. Daha sonra Almaniya, Böyük Britaniya və Niderlandda universitetlərdə təhsili alıb. 1999-cu ildən Tartu Universitetinin professorudur. 2007-2012-ci illərdə həmin universitetin rektoru olub. 2017-ci ildən Estoniya Milli Muzeyinin direktoru idi.

Qeyd edək ki, Estoniya dövlət quruluşuna görə parlament respublikasıdır. Dövlət başçısı deputatlar tərəfindən seçilir, səlahiyyət müddəti beş ildir.

# Türkiyəli aktyor Nüsrət Çetinel vəfat edib

Türkiyənin tanınmış aktyoru Nüsrət Çetinel sentyabrın 1-də ömrünün 70-ci ilində dünyasını dəyişib.



1952-ci ilin 26 yanvarında Ankarada anadan olan Nüsrət Çetinel Ankara Dövlət Konservatoriyasını bitirib.

Müxtəlif filmlərdə, seriallarda yaddaqalan obrazlar yaradıb, televiziya layihələrində iştirak edib. Dublyaj ustası kimi də tanınıb. Azərbaycan tamaşaçısına "Möhtəşəm yüz il" (Lala Kasım paşa), "Paytaxt Əbdülhəmid" (Sədrəzəm Said paşa) seriallarından tanışdır.

# Azərbaycanlı heykəltəraşın "Siçovul" kompozisiyası

## Xarkov Əczaçılıq Universitetinin simvolu olacaq




Xarkov şəhərində Ukraynanın Xalq rəssamı, azərbaycanlı heykəltəraş Seyfəddin Qurbanovun "Siçovul" abidə-kompozisiyasının açılışı keçirilib.

Abidə Xarkov Əczaçılıq Universitetinin 100 illiyi münasibətilə ali təhsil ocağının ərazisində ucaldılıb.

Açılış mərasimində çıxış edən Seyfəddin Qurbanov bildirib ki, dünyanın bir çox ölkələrində, o cümlədən ABŞ, Rusiya, Avropa dövlətlərində "Siçovul" abidəsi ucaldılıb. Ukraynada belə bir abidənin məhz Xarkovda ucaldılması şəhər sakinləri və turistlər üçün maraq doğuracaq. Onun sözlərinə görə, heykəl kompozisiyanın mənası odur ki, dünya tibbi siçovullar üzərində aparılan elmi eksperimentlərlə inkişaf edib. İnsanları xəstəlikdən, ölümdən qurtaran dərmanlar yaradılıb, elmi kitablar yazılıb. Ona görə də heykəl-kompozisiyada kitablar da əksini tapıb. Abidənin adı "Sağlamlıq haqqında elm fenomeni"dir.

Universitetin rektoru Alla Kotvitskaya da heykəl-kompozisiyanın əhəmiyyətini vurğulayıb.

Qeyd edək ki, hündürlüyü 3.5 metrdir və tuncdan hazırlanıb. Seyfəddin Qurbanov Xarkovda 60 heykəl-kompozisiya və memorial lövhənin müəllifidir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1640

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.